

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Zəngəzur dəhlizi gündəmdə: İrəvan geri çəkildi!




14


SƏS

№ 003 (6928)

10 yanvar 2024-cü il.
Qiymәti 60 qәpik


## Azərbaycan- BƏƏ münasibətləri: gələcək əməkdaşlığa mühüm zəmin



2

**Prezident İlham Əliyev: "Yaxın keçmişdə enerji sahəsində, xüsusilə yaşıl enerji sahəsində çox önəmli addımlar atılmışdır"**

# Ermənistanı məhvə aparan DİNİ LİBASLI TƏXRİBATÇILAR



7

## Bədbəxt hərflər, nakam sözlər, talesiz durğu işarələri...



8

## Evimizi necə isti saxlayaq?



10

## Texnoloji terror: bizi nələr gözləyir?



11

## 3 günə 3 tələbə



11

## Saç tökülməsinin səbəbləri NƏLƏRDİR?



13

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra diplomatik münasibətlərin yaradılması onun dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açdı. İkitərəfli siyasi münasibətlərin qurulması siyasi-iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaratmış oldu. Müstəqil dövlət kimi Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Ölkəmizin ərəb dövlətləri ilə münasibətləri də yeni inkişaf mərhələsinə qədəm qoyub. "İki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir və biz müxtəlif sahələrdə daimi tərəqqi və uğurun şahidi oluruq. Biz də Birləşmiş Ərəb Əmirliklərində iki ölkə arasında ölkələrimizin və xalqlarımızın rifahı naminə müxtəlif sahələrdə əməkdaşlığın inkişafına hazırıq". Bu fikirləri yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü zamanı bildirib. Qeyd edək ki, bu Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. "Əminəm ki, bu səfər iki ölkə arasındakı dostluq, qardaşlıq münasibətlərinin inkişafına böyük töhfə verəcək", - deyə Prezident bildirib. Dövlət başçımız bu səfəri tarixi hadisə kimi dəyərləndirib: "Şadam ki, bizim şəxsi görüşlərimiz müntəzəm xarakter alır. Keçən ay biz Sizinlə Əbu-Dabidə görüşmüşdük. Fürsətdən istifadə edərək, COP28 Konfransının uğurla keçirilməsi münasibətilə Sizi bir daha təbrik edirəm. COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar verdiyiniz dəstəyə görə bir daha minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək, BMT Təhlükəsizlik Şurasındakı mövqeyinizə görə, Azərbaycana verdiyiniz dəstəyə görə Sizə bir daha xüsusi minnətdarlığımı bildirmək istəyirəm".



# Azərbaycan- BƏƏ münasibətləri: gələcək əməkdaşlığa mühüm zəmin

## Prezident İlham Əliyev: "Yaxın keçmişdə enerji sahəsində, xüsusilə yaşıl enerji sahəsində çox önəmli addımlar atılmışdır"



### "ƏMƏKDAŞLIĞIMIZ ÇOXŞAXƏLİDİR, BİR ÇOX SAHƏLƏRİ ƏHATƏ EDİR"

Səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişmələri və Ətraf Mühit Nazirliyi arasında Niyyət Protokolu", "ADA Universiteti ilə Anvar Qarqaş Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında elektrik enerjisinin ötürülməsi layihələri üzrə İnvestisiya Əməkdaşlığına dair Anlaşma Memorandumu", "Azərbaycanın bərpa olunan və təmiz enerji potensialından istifadənin daha da gücləndirilməsi və Yaşıl Enerjinin İxracı Əməliyyatlarına imkan verən Strateji Əməkdaşlıq üzrə Çərçivə Müqaviləsi" və s. imzalanıb. Azərbaycan Prezidenti bu sənədlərin gələcək əməkdaşlığımız üçün çox güclü zəmin yaradacağını diqqətə çatdırıb: "Əməkdaşlığımız çoxşaxəlidir, bir çox sahələri əhatə edir və yaxın keçmişdə enerji sahəsində, xüsusilə yaşıl enerji sahəsində çox önəmli addımlar atılmışdır. Keçən ilin oktyabr ayında Azərbaycanda 230 meqavat gücündə günəş elektrik stansiyasının açılışı olmuşdur. Bu stansiyanın yaradılması ölkənizin investisiyaları hesabına mümkün olmuşdur. Bu, sadəcə olaraq, birinci addımdır. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında Sizin ölkənizin sərmayələri hesabına Azərbaycanda 10 qiqavat yaşıl enerji istehsalı nəzərdə tutulur. Keçən ay Bakıda daha iki önəmli sənəd imzalanmışdır. Onlardan biri - Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında imzalanmış sənəd əsasında bir milyard dollarlıq maliyyə imkanı olan Birgə İnvestisiya Fondu yaradıldı. İkinci önəmli sənəd informasiya-kommunikasiya sektoruna aiddir".



### "SİZİN SƏFƏRİNİZ BİZİM STRATEJİ TƏRƏFDAŞLIĞIMIZI MÖHKƏMLƏNDİRƏCƏK"

Mövcud əlaqələr mövcud münasibətlərin davamlılığını, strateji əhəmiyyət kəsb etdiyini göstərir. "Sizin səfəriniz bizim strateji tərəfdaşlığımızı möhkəmləndirəcək, xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirəcək", - deyə Azərbaycan Prezidenti İlham Əliyev diqqətə çatdırıb.

*Ardı Səh. 3*

# Azərbaycan- BƏƏ münasibətləri: gələcək əməkdaşlığa mühüm zəmin

## Prezident İlham Əliyev: "Yaxın keçmişdə enerji sahəsində, xüsusilə yaşıl enerji sahəsində çox önəmli addımlar atılmışdır"

Əvvəli Səh. 2



Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində səfərdə olmuş və Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşmüşdür. Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə məlum işgüzar səfəri bu əlaqələrin müasir dövrümüzdə yeni inkişaf mərhələsində olduğunun təzahürü idi. Azərbaycanın ərəb dünyası ilə tarixi-mədəni bağlılığı yaradan sənədlər mövcuddur. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında diplomatik əlaqələr yaradılıb. İki ölkə arasında səfirlik səviyyəsində rəsmi münasibətlər qurulub. Belə ki, Azərbaycanın 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Səfirliyi təsis edilib. Həmin səfirlik 2001-ci il 16 iyun tarixindən etibarən BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində fəaliyyət göstərir. Bundan başqa 14 mart 2012-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dubay şəhərində Baş Konsulluq təsis edilib. 2005-ci ildə Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanması, 2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfəri və s. bu ikitərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verir.

### REGİONDA ƏN BÖYÜK GÜNƏŞ ELEKTRİK STANSİYASI





Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlərin imzalanması əlaqələrin davamlığına əsaslanır. Belə ki, "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi", "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi" və "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi" imzalanıbdır.

Bu yaxınlarda "Masdar" şirkəti tərəfindən tikilən və regionda ən böyük günəş elektrik stansiyası olan Qaradağ Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi qardaşlıq əlaqələrinin növbəti təzahürü idi. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin 4 nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirilib. Məlumdur ki, 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulmuşdu. Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirir. Bu əlaqələrin daha da genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. İki ölkə arasında münasibətlər bir çox sahədə stratrji əhəmiyyət daşıyır. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. "Masdar" ilə aparılan əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir.

İki ölkə arasında imzalanmış sənədlər xüsusi əhəmiyyət kəsb edir. Bu sənədlər ölkələrarası əlaqələrin və əməkdaşlığın inkişafı istiqamətində səyləri daha səfərbər edəcəkdir.

***Zümrüd BAYRAMOVA***

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 130-cu kitabı çapdan çıxıb




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 130-cu kitabı çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin iyul-sentyabr aylarını əhatə edir. Bu kitabda Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana və Tacikistana səfərlərinə, həmçinin ölkəmizə səfər etmiş Özbəkistan və Türkiyə prezidentləri ilə görüşlərinə dair materiallar toplanıb. Xatırladaq ki, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin 2023-cü ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı iki ölkənin liderləri, həmçinin Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər, Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər, şəhərin baş planı ilə tanış olublar, habelə Şuşa şəhərinə səfər ediblər. Bütün bunlar haqqında informasiyalarla 130-cu kitabda tanış olmaq mümkündür.

2023-cü il sentyabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri isə İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi ilə əlamətdar olub. Kitaba Azərbaycan və Türkiyə prezidentlərinin bu mərasimdə iştirakına, habelə təkbətək görüşünə, sənədlərin imzalanmasına, qardaş ölkələrin liderlərinin mətbuata bəyanatlarla çıxışlarına, Naxçıvan Bərpa-İstehsalat Hərbi Kompleksinin açılış mərasimində iştirakına dair informasiyalar da daxil edilib.

Ötən ilin sentyabr ayının ən mühüm hadisəsi isə Qarabağda keçirilmiş lokal xarakterli antiterror tədbirləri olub. Antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini bərpa edib. Prezident İlham Əliyev bu tədbirlərin nəticələri ilə bağlı Azərbaycan xalqına müraciət edib.

Sitat: Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız-adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən "erməni cəfakeşlərindən" tələb edirdik - nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik. Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın.

Azərbaycan Prezidentinin bu müraciətinin tam mətni 130-cu kitaba daxil edilib.

Yeni nəşrdə dövlətimizin başçısının Çinin "China Media Group" media korporasiyasına, Şuşada "Euronews" televiziyasına müsahibələrinin mətnləri də verilib. Dövlətimizin başçısı avqust ayında, həmçinin Qazax, Şəmkir, Samux, Bərdə, Kəlbəcər və Laçında səfərdə olub, "Laçın Şəhəri Günü" bayram şənliklərində iştirak edib. Oxucu bu kitabda həmin səfərlərin materialları ilə də tanış ola bilər.

# 33 yaşlı ustad: "SƏS" Qəzeti

***Müstəqil Azərbaycanın müasir mətbuat tarixində öz dəstxətti ilə seçilən, fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularına səs verən "Səs" qəzetinin yaranmasından bu ilin yanvarın 11-də 33 il ötür. "Səs" qəzeti bütün bu illər ərzində təkcə cəmiyyətin informasiya ilə təmin olunması funksiyasını yerinə yetirməmiş, eyni zamanda, Azərbaycanda ictimai fikrin obyektiv və düzgün əsaslarla formalaşması sahəsində böyük xidmətlər göstərmiş, gərgin mübarizədə müstəqilliyini bərpa edən ölkəmizin siyasi sisteminin milli maraqlara uyğun qurulmasında mühüm rol oynamışdır. Bəs gəlin görək, "Səs" qəzeti Azərbaycan mətbuatında necə qəbul olunur və hansı xüsusiyyətlərinə görə seçilir. Media kapitanları bu barədə öz fikirlərini belə bildirib:***




**Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid:** ""Səs" qəzetinin zəngin tarixi var. Bütün bu müddət ərzində öz sabit mövqeyini və oxucu dairəsini qoruyub saxlaya bilib. Yazılı mətbuatın populyar olduğu dövrlərdə, hələ müstəqillikdən öncə fəaliyyətə başlayan"Səs" qəzeti həm də bir qərinənin tarixini özündə yaşadır. Qəzetin fədakar kollektivini bir daha təbrik edirəm".



**"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə:** "Hesab edirəm ki, "Səs" qəzetinin mətbuatda fəaliyyət göstərdiyi 33 il kifayət qədər zəngin, yaddaqalan və önəmli bir tarixdir. 1991-ci il 11 yanvar tarixini çox gözəl xatırlayıram. Azərbaycanın müstəqil mətbuat tarixində "Səs" qəzetinin özünəməxsus rolu var. Qəzetin baş redaktoru və əməkdaşları Azərbaycanda ədalətli mövqeyin nümayiş olunmasında, müstəqilliyə gedən yolda öz fəaliyyətini ortaya qoyub. "Səs" qəzeti həm də Ulu Öndər Heydər Əliyevin fəaliyyətinə xüsusi önəm verib. Ümummilli lider hələ Naxçıvanda ikən "Səs" qəzeti ölkədə gedən prosesləri yoxsullara çatdırmaqda müstəsna əhəmiyyətə malik olan bir mətbuat orqanıdır. Eyni zamanda, bu qəzet Yeni Azərbaycan Partiyasının yarandığı dövrdə rayonlarda təşviqat və təbliğat işlərində müstəsna xidmətlər göstərib. "Səs" qəzeti həmin dövrlərdə hakimiyyətdə olan insanların ədalətsiz hərəkətlərini ictimaiyyətə çatdırmaq üçün cəsarətli məqalələrlə çıxış edib. Bu gün də "Səs" qəzeti sözügedən xidmətləri özündə ehtiva edir. Öz auditoriyası baxımından kifayət qədər sevilən və nüfuzunu qoruyub saxlayan mətbuat orqanlarından biridir. Bu 33 il, sadəcə, "Səs" qəzetinin deyil, həm də müəyyən mənada müstəqil Azərbaycan mətbuatının keçdiyi yola aydınlıq gətirir. Hörmətli Baş redaktor başda olmaqla, qəzetin bütün kollektivini, oxucularını təbrik edirəm".



**BDU-nun Jurnalistika fakültəsinin dekanı, Əməkdar jurnalist Vüqar Ziféroğlu:** ""Səs" qəzeti 33 illik müddət ərzində Azərbaycan müasir mediasında özünəməxsus yeri ilə seçilən qəzet kimi özünü təsdiq edib. Bu qəzet kifayət qədər uzun bir yol keçib. 33 illik bir yolda "Səs" qəzeti hər zaman öz siyasi əqidəsi və prinsipiallığı ilə fərqlənib. Azərbaycan cəmiyyətinin maariflənməsində önəmli rol oynayan qəzetin ötən əsrin 90-cı illərinin əvvəllərindəki fəaliyyəti xüsusi qiymətləndirilməlidir. "Səs" qəzeti həmin dövr üçün kifayət qədər ciddi və önəmli məqamlara aydınlıq gətirirdi. Onu da vurğulamaq yerinə düşər ki, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi də "Səs" qəzeti ilə yaxından əməkdaşlıq edir. Bu mətbuat orqanı hər zaman tələbələrimə iş və təcrübə baxımından öz dəstəyini göstərir. Buna görə də "Səs" qəzetinə xüsusi olaraq təşəkkürümü bildirir və 33 ili uğurla başa vurması münasibətilə təbrik edirəm".



**Əməkdar jurnalist İlham Quliyev:** "Yanvarın 11-də Azərbaycan ənənəvi mediasının tarixində xüsusi yeri olan "Səs" qəzetinin 33 yaşı tamam olur. 1991-ci ildə fəaliyyətə başlayan qəzet Azərbaycanın müstəqillik tarixində xüsusi yeri var. Heç kimə sirr deyil ki, "Səs" mövcud olduğu dövrdə həmişə Ümummilli lider Heydər Əliyevin media müstəvisindəki əsas təbliğatçılarından olub. Vaxtilə Ümummilli liderə qarşı qarayaxma kampaniyaları aparılan zaman öz səhifələrində ona dəstək nümayiş etdirib. Bu siyasi xətt qəzetin bütün fəaliyyəti dövründə müşahidə edilib.



Zamanın diktəsi ilə "Səs" qəzeti müasir dövrün tələblərinə uyğunlaşıb, modernləşib, SƏS Media Qrupuna çevrilib. Amma əsas etibarı ilə ənənəvi medianın əsas təmsilçilərindən biri kimi qalmaqdadır. Yəqin elə bu səbəbdəndir ki, hazırda MEDİA Agentliyinin xətti ilə dövlətdən maliyyə yardımı alan gündəlik qəzetlər sırasında "Səs"in də adı var.

Mən başda Bəhruz müəllim olmaqla qəzetin bütün kollektivini təbrik edirəm. Bugünkü çətin dövrdə ənənəvi media ənənələrini davam etdirmək yolunda onlara uğurlar arzulayıram. Arzu edirəm ki, "Səs" gələcəkdə də daha yaxşı maddi-texniki bazası, peşəkar kollektivi ilə Azərbaycan mediasında varlığını saxlasın!".

***Ləman Sərraf***

## Tarixi abidələrin qorunması istiqamətində hansı işlər görülür?

*MÜNASİBƏT*



"Tarixi abidələrin qorunması istiqamətində kifayət qədər işlər görülür, addımlar atılır. Amma birinci növbədə Bakı şəhərinin işlək paytaxta çevrilməsi üzərində düşünülməlidir. Yəni, bu yoxdursa, istənilən qədər tarixi abidə də olsa, şəhərin funksionallığı olmayacaq. Bütövlükdə Bakı şəhərində birinci növbədə tıxac problemini həll etmək lazımdır, şəhər artıq hərəkət ediləcək vəziyyətdə deyil. Alternativ nəqliyyat problemi günü-gündən daha çox aktuallaşmağa başlayır". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Fazil Mustafa deyib.

Deputat bildirib ki, metro tikintisinin effektli şəkildə davam etdirilməməsi də prosesə ciddi zərər vurdu: "Bütövlükdə hərtərəfli olaraq Bakı şəhərində tarixi abidələr məsələsindən daha çox şəhərin işlək vəziyyətə gətirilməsi probleminin həll yolu tapılmalıdır. Çünki bütün infrastrukturun biri-birinə mane olacaq şəkildə mövcudluğu söz-söhbət mövzusudur, bu da olduqca təhlükəlidir.

Şəhərin mərkəzində sıra dağlar kimi düzülən körpülər müasir dövrün standartlarına cavab vermir. Burada daha çox bir neçə mərtəbəli asma körpülərin salınması vacib idi ki, hərəkət dayanmasın. Çox təəssüf ki, bu məsələ ətrafında hələki ümidverici dəyişiklik yoxdur. Tarixi abidələrin müasir tikililərlə əlaqələrinin qurulması isə dünyada mövcud olan haldır. Bu prosesin hansı formada keçirilməsinin isə ictimai dinləmə, müzakirə formasında ilkin təqdimatının keçirilməsi vacibdir.

İşğaldan azad edilmiş ərazilərdə hər hansı bir şəkildə abidələri qorumaq mümkün olmayıb. Əgər strukturların köhnə versiyası varsa, ona uyğun şəkildə bərpası mümkündür. Amma daha vacib abidələr üzərində düşünülməlidir. Çünki burada həm də abidənin turizm baxımından cəlbediciliyə sahib olması nəzərə alınmalıdır. Həmin ərazilərdə bir çox şey yenidən qurulur. Lakin yenidənqurma işləri zamanı strukturlarda modernliklə yanaşı, tarixi cizgilərin bərpa edilməsinə də diqqət edilməlidir".

## "Dövlət tərəfindən qazilər və şəhid ailələri sosial cəhətdən müdafiə olunurlar"



"Şəhid ailələri və qazilərə həm Azərbaycan dövləti, həm də cəmiyyəti tərəfindən böyük diqqət və qayğı göstərilir. Onlar cəmiyyətin ən dəyərli üzvləri kimi qiymətləndirilirlər. Azərbaycanın Türkiyədəki səfirliyində qazilərimizlə görüş də məhz bu siyasətin tərkib hissəsidir. Bu siyasət isə ölkə başçı İlham Əliyevin tapşırığı ilə davam etdirilir. Cənab Prezident hər zaman torpaqlarımızın azad olunması, ərazi bütövlüyü və suverenliyimizin bərpa edilməsində ilk növbədə şəhid və qazilərimizə borclu olduğumuzu bildirir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Quliyev deyib.

Deputat bildirib ki, dövlət tərəfindən qazilər və şəhid ailələri birinci sırada sosial cəhətdən müdafiə olunan insanlardır: "Onların sosial təminatı üçün xüsusi proqram mövcuddur və qanunvericilikdə onların imtiyazları müəyyənləşdirilib. Bu qəbildən olan şəxslərə Prezident təqaüdləri, müavinətlər və pensiyalar verilir və bunların məbləği respublika üzrə orta aylıq əməkhaqqı səviyyəsindədir.

Eyni zamanda mənzil şəraitinin yaxşılaşdırılması da daim dövlətin diqqətindədir. Bu qəbildən olan 14 minə yaxın soyadışımıza dövlət tərəfindən hər cür şəraiti olan mənzillər hədiyyə olunub. Onların reabilitasiyası, müalicəsi, sosial-tibbi ehtiyacların ödənilməsi də dövlətin diqqəti daxilindədir. Ehtiyacı olanların xarici dövlətlərdə müalicəsi də Azərbaycan dövləti tərəfindən təmin olunur. Burada əsas məsələ dövlət başçısının tövsiyyələri və cəmiyyətin onlara diqqəti ilə bağlıdır. Bu insanlar cəmiyyətdə hörmət sahibidirlər və bütün mühüm tədbirlərə də hər zaman dəvət olunur, iştirakları təmin edilir. Bu siyasət bundan sonra da hər zaman davam edəcək".



***S. Hüseynli***

# Yaxın Şərq:
## Müharibə Cənuba köçür

Keçən həftənin sonunda İsrail Qəzza zolağının şimalında "HƏMAS strukturlarının sökülməsi"nin başa çatdığını və İsrail Müdafiə Qüvvələrinin (İMQ) anklavın mərkəzində və cənubundakı qrupun məhv edilməsinə cəlb olunduğunu açıqlayıb. Amma aktiv hərbi əməliyyatların sonu hələ çox uzaqdadır və ABŞ İsraili hərbi əməliyyatın miqyasını məhdudlaşdırmağa məcbur etməyə çalışır. Yanvarın 7-də hələ adı belə olmayan müharibənin başlanmasının üç ayı tamam oldu. "Dəmir Qılınclar" adlı hərbi əməliyyat var, lakin ölkə 2023-cü il oktyabrın 7-də HƏMAS hücumundan sonra baş verən hadisələrin hansı adla tarixə düşəcəyinə hələ qərar verməyib. Dekabrın ortalarında baş nazir Benyamin Netanyahunun ofisi bir neçə variantın nəzərdən keçirildiyini bildirib: "Simchat Tövrat Müharibəsi" (Qəzza ilə həmsərhəd kənddə qətliamın baş verdiyi bayram), "Bereşit müharibəsi" (Yaradılış)) və ya sadəcə olaraq "Qəzzada müharibə". Bir neçə gün variantlar müzakirə edilsə də, sonra səngidi. Görünür, hələ vaxtı deyil. Döyüş bitdikdən sonra "adqoyma" mərasimi də olacaq.

Bu arada İMQ Qəzza zolağının şimalında quru əməliyyatının ikinci mərhələsinin başa çatdığını elan edib. Ordunun sözçüsü kontr-admiral Daniel Agari deyib ki, İsrail ordusu Qəzzanın şimalında HƏMAS strukturlarının məhv edilməsini başa çatdırıb və bu uğurlarını dərinləşdirməyə davam edəcək. İndi diqqəti zolağın mərkəzinə və cənubuna HƏMAS-ın ləğvinə yönəltmək lazımdır. Bu, mahiyyət etibarı ilə o deməkdir ki, anklavın şimalında Vaşinqtonun İsraildən tələb etdiyi əməliyyatın üçüncü mərhələsinə keçid baş verib.



Bu, HƏMAS-ın mövqelərinə raket və bomba hücumlarının kəskin azalması və əməliyyat kəşfiyyatının məlumatlarına görə, silahlı qüvvələrin olduğu obyektlərə məhdud reydlər deməkdir. Eyni zamanda İMQ Qəzzanın müəyyən ərazilərini tamamilə bloklayıb və onlar arasında hərəkəti praktiki olaraq dayandırıb. Şimalda qalan sakinlər indi praktiki olaraq yaşayış yerlərini tərk edə bilmirlər.

## Hərbi əməliyyatlar İsrail-HƏMAS-dan Husilərə doğru



Bu arada, cənubda və qismən də sektorun mərkəzində hərbi əməliyyatın aktiv mərhələsi davam edir. Hər gün daha çox



tunelin aşkar edilərək partladıldığı barədə xəbərlər gəlir. Onlara sözün əsl mənasında hər yerdə rast gəlinir. Hərbi ekspertlərin fikrincə, döyüşdən əvvəl İsrail kəşfiyyatının əlində yaraqlıların yeraltı kommunikasiyalarının uzunluğu haqqında məlumatlar natamam olub. Əslində, 500 kilometrlik yeraltı tunellərdən deyil, daha böyük uzunluqdan danışırıq.

Beşulduzlu Blue Beach Resort oteli artıq mövcud deyil. İMQ yaraqlıları oradan qovduqdan sonra oteldə silah anbarları, keçid lövhələri və PUA-lar üçün saxlama sahəsi olan geniş tunellər sisteminə aparan yeddi giriş aşkar edib. Təmizləmə əməliyyatları nəticəsində zəngin yeraltı dünyası ilə birlikdə otel də partladılıb. İsrail əsgərləri eyni şeyi bir çox yaşayış binaları ilə də ediblər, çünki bəzən onlara yaxınlaşmaq və tunelləri təmizləmək mümkün deyil.

Bundan əlavə, qeyd edək ki, Qəzzada bütövlükdə tikinti standartları dünya standartlarından uzaqdır və evlər az qala qum üzərində tikilib. Buna görə də, tunellərlə birlikdə binalar dağıdılır. Ötən bazar günü Xan Yunisdəki belə yeraltı dəhlizlərdən birindən görüntülər dərc edilib - Baş Qərargahın rəhbəri Herzi Alevi və Şin Bet ümumi təhlükəsizlik xidmətinin rəhbəri Ronen Bar tərəfindən həmin tunellərə baxış olub. O da məlum olub ki, İsrail təhlükəsizlik qüvvələrinin rəhbərlərinin getdiyi yerə yaxın ərazidə HƏMAS-ın Qəzza zolağındakı lideri Yəhya Sinvar gizlənir.

Tərəflər kompromis və ya yeni sövdələşmədən danışmağa hazır deyil. İsrail və ABŞ ümid edirlər ki, HƏMAS-ın xaricdəki nümayəndələri qrup komandirini fələstinli məhbuslar və bir neçə həftəlik atəşkəs müqabilində müəyyən sayda girovların azad edilməsinə razılıq verməyə inandırmağa çalışırlar. Amma vasitəçilər arasında danışıqların getdiyi Qətərdə necə deyərlər, işlər ləng gedir. Yeganə ümidverici odur ki, Qəzzada Həmas liderlərindən biri Saleh Əl-Arurinin bu yaxınlarda öldürülməsindən sonra da danışıqlar hələ də davam edir.

### Yaxın Şərq və kənardakılar

Qəribədir ki, amerikalıları ən çox bezdirən hərbi əməliyyatların davam etməsi və danışıqlarda irəliləyişin olmamasıdır. Vaşinqton İsrailə hər gün təzyiqi artırır. İsrail rəhbərliyindən Qəzza zolağında hərbi əməliyyatın ikinci mərhələsinin başa çatdığını açıq şəkildə bəyan etmək istənilir. Ağ Evin fikrincə, bu, birincisi, Qətər və Misirdən olan vasitəçilərin işini aktivləşdirməyə imkan verəcək, ikincisi, Livanla sərhəddə gərginliyi aradan qaldıracaq. Hər gün İsrailə raket zərbələri endirilir və Livan ərazisinə cavab hava zərbələri endirilir. Bazar günü axşam İsrail ordusu Hizbullahın Meron dağındakı hava idarəetmə mərkəzini vura bildiyini etiraf edib. İMQ iddia edir ki, heç kim xəsarət almayıb və sistemin ehtiyat gücü var, lakin bu, çox həssas zərbədir. Vəziyyətin tamhüquqlu müharibəyə mümkün qədər yaxın olması təəssüratından xilas olmaq çətindir.

Amerikalılar ümid edirlər ki, baş nazir Benyamin Netanyahu Qəzzaya kütləvi hücumları dayandırmağa hazır olduğu barədə lazımi sözləri desə, İranyönlü şiə qruplar da öz növbəsində İsrailin şimalına hücumları dayandıracaq və problem diplomatik yolla həll oluna bilər. Əslində, məhz buna görə ABŞ dövlət katibi Antoni Blinken bazar ertəsi İsrailə gəlib.

Ardı Səh. 6

Əvvəli Səh. 5

# Yaxın Şərq:
## Müharibə Cənuba köçür

### Qırmızı dənizin "qırmızı xətləri"

Ərəbistan yarımadasının cənubunda hər an müharibəyə çevrilmək riski olan partlayıcı vəziyyət yaranıb. Yəməndə yerləşən Ənsar Allah (Husi) üsyançı hərəkatı aylardır Qırmızı dənizdə ticarət gəmilərinə hücum edərək qlobal ticarətin sabitliyini təhdid edir. ABŞ və müttəfiqləri artıq İranla yaxın münasibətdə olan husiləri hücumları dayandırmayacaqları halda onlara qarşı ciddi hərbi əməliyyatların keçiriləcəyi ilə hədələyiblər. Üsyançılara qarşı hərbi əməliyyatlar Yəməndə kövrək atəşkəsin pozulmasına gətirib çıxara bilər və ən pis ssenaridə İran və Səudiyyə Ərəbistanını münaqişəyə sürükləyə bilər. Eyni zamanda, eskalasiyanın hələ də qarşısını almaq olar, çünki münaqişənin potensial tərəflərindən heç biri Yəməndə tamhüquqlu hərbi əməliyyatlarda maraqlı deyil, baxmayaraq ki, onların hər biri buna öz yolu ilə hazırlaşır.



### Husilər suları bulandırır

Ənsar Allahın Qırmızı dənizdə ticarət gəmilərinə hücumları qlobal dəniz ticarətinin 20%-ni pozub və 40-dan çox ölkəyə təsir edib. Bu barədə yanvarın 7-də Dohaya səfəri zamanı ABŞ dövlət katibi Entoni Blinken bildirib. Diplomat açıq şəkildə bildirib ki, Vaşinqtonun səbri dolub. Qətərin Baş naziri Məhəmməd bin Əbdül Rəhman Əl Tani ilə keçirdiyi mətbuat konfransında cənab Blinken vurğulayıb ki, bu, təkcə regional problem deyil. Bu o deməkdir ki, malların getməli olduqları yerə çatması daha çox vaxt aparır. Bu, xərcləri artırır və bu xərclər bütün dünyada istehlakçılara ötürülür.



Diplomat xəbərdarlıq edib ki, "ondan çox ölkə" husilərin hücumlarına görə cavabdehlik daşıyacaqlarını açıq şəkildə bəyan edib. O xatırladıb: "ABŞ və digər 20 ölkə Qırmızı dənizdə gəmiçiliyi qorumaq üçün dekabrın 18-də "Prosperity Guardian" əməliyyatına başlayıb. Husilərlə Vaşinqton arasındakı qarşıdurmada əsas sual prezident Co Bayden administrasiyasının üsyançılara qarşı sərt tədbirlər görməyə qərar verib-verməyəcəyi və hərəkatı dəstəkləyən İranın buna necə reaksiya verəcəyidir.

Husilər oktyabrın sonlarında Qırmızı dənizdə ticarət gəmilərinə hücumlara başlayıblar. Hərəkat deyir ki, o, yalnız İsraillə əlaqəsi olan gəmilərə hücum edir. Halbuki, üsyançılar İsraillə açıq-aşkar əlaqəsi olmayan gəmiləri raket və pilotsuz təyyarələrlə atəşə tuturlar. Belə ki, husilər noyabrın 20-də Baham adalarının bayrağı altında üzən "Galaxy Leader" gəmisini ələ keçirərək 25 ekipaj üzvünü girov götürüblər. Gəmi israilli iş adamına məxsus olsa da, gəmidə israilli olmayıb. ABŞ Mərkəzi Komandanlığının məlumatına görə, husilər 19 noyabrdan bəri kommersiya gəmilərinə ən azı 24 hücum həyata keçirib.

Qeyd edək ki, üsyançıların taktikası qismən işə yarayıb. Qırmızı dənizdəki hücumlar İsrailə ciddi iqtisadi ziyan vurub. Belə ki, Eylat limanı noyabrdan bəri gəmiçilik fəaliyyətindən əldə etdiyi gəlirin 85%-ni itirib. Ən böyük konteyner daşıma operatoru "China Cosco Shipping" isə yanvarın 8-də husilərin hərəkətləri səbəbindən İsrail limanlarına malların çatdırılmasını dayandıracağını açıqlayıb. Əslində, beynəlxalq şirkət İsrailə mal çatdırmaqdan imtina edərək üsyançıların tələblərini yerinə yetirmək presedenti yaradıb.

Lakin bundan əziyyət çəkən təkcə İsrail şirkətləri deyil, beynəlxalq ticarətin təxminən 15%-nin Bab əl-Məndəb boğazından keçdiyini nəzərə alsaq, Qırmızı dənizdə gəmilərə hücumlar artıq dünya miqyasında qiymətlərin artmasına səbəb olub. Noyabr ayından etibarən Qırmızı dəniz vasitəsilə yük daşımaları 35% azalıb.

Aralıq dənizi ilə Qırmızı dənizləri birləşdirən Süveyş kanalından keçən nəqliyyatın təxminən beşdə biri neftdir. Xam neft və neft məhsullarının ümumi tədarükü gündə demək olar ki, 9 milyon barel təşkil edir ki, bu da ümumi dünya neft ticarətinin təxminən 12%-ni təşkil edir. Bu marşrut üzrə neft ticarətinin tam dayandırılması 2024-cü ildə neft qiymətlərinin kəskin artmasına səbəb ola bilər.

Hücumlar nəticəsində sənayenin ən böyük beş oyunçusu da daxil olmaqla 18 gəmiçilik şirkətinin yük marşrutları dəyişdirilib. "Time" qəzetinin yazdığına görə, Qırmızı dəniz uzunmüddətli perspektivdə bağlanarsa, əsas zərəri Avropa və Aralıq dənizi ölkələri görəcək. Tunis və Əlcəzair xüsusilə həssasdır, çünki onların Asiya ilə ticarətinin böyük hissəsi Süveyş kanalından keçir. İndiyə qədər ən çox itirən ölkə iqtisadiyyatı Süveyş kanalının tranzit ödənişlərindən asılı olan Misirdir ki, bu da əhalisi ən sıx olan ərəb ölkəsinin bütün valyuta gəlirlərinin dörddə birini təşkil edir.



### Müharibəyə hazırlıq

Bu arada, dekabrın 31-də amerikapərəst koalisiyanın hərbi qüvvələri ilk dəfə husilərlə qarşı-qarşıya gəlib. ABŞ vertolyotları üsyançıların hücumuna məruz qalan Sinqapur bayrağı altında üzən konteyner gəmisindən qəza siqnalı alıb. Koalisiya gəmiləri Husilərə məxsus dörd qayıqdan üçünü batıraraq on üsyançını öldürüb. ABŞ, Böyük Britaniya və daha 12 ölkə yanvarın 3-də husilərə ultimatum təqdim edərək, hərbi müdaxilə ilə hədələyib.ABŞ Yəməndə hava hücumları üçün potensial hədəflərin, o cümlədən radar qurğuları, raket və pilotsuz təyyarələrin buraxılış məntəqələri və sursat anbarlarının siyahısını artıq tərtib etdiyini bildirib.

Eyni zamanda, Vaşinqton regionda hərbi mövcudluğunu artırır. Noyabrın sonunda Pentaqon "Dwight Eisenhower" təyyarədaşıyan gəmisini müşayiət edən zərbə qrupu (Raket kreyseri və Gravely və Stethem esminesləri) ilə birlikdə Fars körfəzinə köçürülüb. "Gerald Ford" təyyarədaşıyan gəmisi də bölgədə vəzifəsinin başına keçib.

ABŞ-ın fəaliyyəti Tehranı qıcıqlandırır. Yanvarın 1-də İran səbəblər göstərilmədən Əlborz təyyarədaşıyan gəmisini Bab əl-Məndəb boğazına göndərib. Həmin gün husilərin əsas nümayəndəsi Məhəmməd Əbdülsalam Tehrana səfər edib. O, İran Xarici İşlər Nazirliyinin nümayəndələri, eləcə də respublikanın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədian ilə görüşüb.

1979-cu ildən bəri ölkədə ən böyük terror aktı olan Kirmanda baş verən terror aktı Tehran və Vaşinqton arasında münasibətləri gərginləşdirib. Yanvarın 3-də general Qasım Süleymaninin öldürülməsinin ildönümündə şəhərdə partlayış baş verib, azı 89 nəfər həlak olub. Daha 286 nəfər yaralanıb. Hadisəyə görə məsuliyyəti İŞİD terror qruplaşması öz üzərinə götürüb.

İranın ali dini lideri Əli Xamneyi hücuma "sərt reaksiya" verəcəyini vəd edib, lakin ABŞ-ın partlayışda iştirakını deməkdən çəkinib. Prezident İbrahim Rəisi baş verənlərə görə "sionist rejimi", yəni İsraili günahlandırıb. ABŞ Dövlət Departamenti partlayışda İsrailin iştirakına dair heç bir əlamətin olmadığını bildirib və ABŞ-ın iştirakı ilə bağlı hər hansı təklifi rədd edib.

### Husilər yenidən təlim keçirlər

ABŞ rəsmi mənbələri bildiriblər ki, prezident Co Bayden administrasiyası İranla böyük bir toqquşmadan qaçaraq husilərin hücumlarına necə cavab verəcəyinə qərar verməyə çalışır. ABŞ Tehrana xəbərdarlıq edib ki, gəmilərə hücumlar dayandırılmalıdır, əks halda mənfi nəticələrə qatlaşmalı olacaq.

Vaşinqtondakı Körfəz Dövlətləri İnstitutunun baş elmi işçisi Əli Alfone bildirib ki, İran ABŞ-ın rəhbərlik etdiyi dəniz koalisiyası ilə ciddi qarşıdurmada da maraqlı deyil. O qeyd edib ki, keçən il noyabrın 25-də İran İnqilabı Keşikçiləri Korpusunun ruporu olan "Fars" xəbər agentliyi Husilərin beynəlxalq gəmiçiliyə hücumlarını "İsrailin son illərdə İran neft tankerlərinə qarşı təxribatına cavabdır, müharibəyə reaksiya deyil" kimi izah edib. Ekspertin sözlərinə görə, agentliyin mövqeyi Tehrandakı əhval-ruhiyyəni əks etdirir. "ABŞ və digər koalisiya üzvlərinin də husilərlə döyüşmək arzusu azdır, lakin eyni zamanda onların hücumlarına cavab verməlidir. Buna görə də ABŞ-ın raket buraxılış məntəqələrinə məhdud hücumlar həyata keçirəcəyini gözləyirəm", - ekspert qeyd edib.

Lakin İran husilərin artan hücumlarını azaltmağa çalışsa belə, üsyançıların öz maraqları və prioritetləri olduğundan, onların hücumları dayandırıb- dayandırmayacağı bəlli deyil. Yəməndə genişmiqyaslı əməliyyata başlamaqla ABŞ-ın rəhbərlik etdiyi koalisiya husilər və Səudiyyə Ərəbistanı arasında kövrək atəşkəsi pozmaq riskini də daşıyır. Ölkələr 2015-ci ilin əvvəlindən müharibə aparır və yalnız 2022-ci ildə müvəqqəti barışıq əldə ediblər. Səudiyyə Ərəbistanı və BƏƏ-nin Amerika koalisiyasına qoşulmaması təsadüfi deyil. Onlar bu cür əməliyyatın bütün risklərini anlayırlar. Ər-Riyadın 2015-ci ildən əməliyyat apardığını və bu əməliyyatı davam etdirsələr də husilərin öhdəsindən gələ bilmədilər. Yəmənin müxtəlif siyasi qüvvələri ilə qarşılıqlı əlaqədə olan Əbu-Dabi də bu zonada eskalasiyanın əleyhinədir.

Səudiyyə Ərəbistanı 2015-ci ildən bəri Yəməndəki husilərlə mübarizəyə ayda 5-6 milyard dollar xərcləyib, lakin məğlubiyyətini etiraf etmək və narahat atəşkəs imzalamaq məcburiyyətində qalıb. Bu il necə, müharibəmi, yoxsa sülhmü dominantlıq edəcək?

***V.VƏLİYEV***

# Ermənistanı məhvə aparan DİNİ LİBASLI TƏXRİBATÇILAR

***Erməni Apostol Kilsəsinin bu zaman qədərki və hazırkı cəfəngiyyatları, yalanları və təxribat xarakterli çağırışları bütövlükdə Ermənistanı acınacaqlı vəziyyətə saldığının, fəlakətlərə düçar etdiyinin dəfələrlə şahidi olmuşuq. Şahidi olmuşuq ki, dini libaslı təxribatçılar öz çağırışları ilə, təhlükəli fikirləri, bəyanatları, təbliğatları ilə Ermənistanı bir bəladan digərinə sürükləyiblər və görünən odur ki, hələ də onlar həmin ölkə üçün, erməni cəmiyyəti üçün yeni fəlakətlər vəd edən məsuliyyətsizlik, hədsizlik etməkdədirlər.***







Erməni təxribatlarının başında onların dini liderlərinin olması elə bil ki, ənənə halını alıb. Halbuki, dini liderlər təxribatlara, fəlakətlərə qarşı olmalıdırlar, çünki heç bir dini təfəkkürdə buna, yəni təxribatçılığa haqq qazandırılmır. Əksinə, barışığı, sülh şəraitində, əmin-amanlıq şəraitində yaşamağı hər bir dini əqidə təlqin etməkdə, aşılamaqdadır. Amma təəssüf ki, bu fikri ermənilərin dini liderləri barədə söyləmək mümkün deyil. Ən qısa zamanda Qarabağdakı ermənilərin separatçı hərəkatının liderlərindən birinə çevrilən, bütün ermənilərin keçmiş katolikosu I Vazgenin 1988-ci il fevralın 25-də Sovet imperiyasının rəhbəri Mixail Qorbaçova açıq məktub göndərməsi və o zamankı Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsini tələb etməsi bir dini lider üçün qəbul olunmayan hesab edilməkdədir. Hər halda, həmin tələbin ardınca hansı qırğınların, qətllərin, itkilərin olması təsdiq etdi ki, belə əqidəli ruhani liderlər sadəcə olaraq, dini libas geyinən təxribatçılardırlar.

Sirr deyil ki, II Qaregin də məhz eyni şəkildə təxribatçılıqla məşğul oldu. O, qonşu dövlətə qarşı ərazi iddialarının qızışdırılması, təxribatçılığa rəvac verən yalanların yayılması üçün əlindən gələni etdi və elə indi də bundan əl çəkmək niyyətində görünümür. Ermənistan daxilində ictimai rəzalətin acısını duymaq kimi, onun bir niyyətinin olmadığı yenə də özünü göstərir. Ermənistanın, qondarma da olsa, müstəqillik tarixində ilk dəfə olaraq, bütün ermənilərin katolikosunun yeni il müraciətinin İrəvanda məhz İctimai Televiziyada yayımlanmasına həmin ölkənin hakimiyyət orqanları tərəfindən imkan verilmədi, amma bu ona dərs olmadı. Dərs olsa idi, belə bir rüsvayçılığın ardınca, onun müraciətinin mətni bir yol tapılaraq, Ermənistan ictimaiyyətinə açıqlanmazdı. Əgər bu vaxta qədər olanlardan belə dərs almış olsa idi, bütün dünya ölkələri, eləcə də Ermənistanın özü tərəfindən tanınmayan qondarma qurum barədə sayıqlamazdı. Ən azından, Milad xütbəsi adı altında təxribatçı fikirlər səsləndirərək çıxış etməzdi və sülhə, əmin-amanlığa mane olmağa çalışmazdı.

İki qonşu ölkə arasında düşmənçilik səhifəsinin bağlanmasına ümidlərin artdığı bir ərəfədə sülh deyil, elə düşmənçilik toxumlarının səpilməsinə heç bir ad qoymaq olmur. Münaqişələrə, müharibələrə, tələfata, itgilərə son qoymaq üçün tarixi bir şans yarandığı zaman dini liderin erməni cəmiyyətini qızışdırmaq üçün Milad xütbəsindən belə istifadə etməsinə nə ad qoyula bilər axı? Bakı ilə İrəvan arasında sülh sazişinin bağlanma ehtimalının ən yüksək olduğu bir vaxtda II Qareginin azərbaycanofob moizə ilə çıxış etməsi onun quduzluğunu xarakterizə edir. Çünki yenidən münaqişəni qızışdırmaq, müharibələrə rəvac verən təxribatlara əl atmaq elə məhz quduzluq əlamətidir. Qəsdən uydurulmuş yalanlarla, konkret olaraq, çirkin niyyətlər üçün nəzərdə tutulan uydurmalarla onun bütövlükdə erməni cəmiyyətini çaşdırmaq, aldatmaq məqsədi dərhal bəlli olur. Bəlli olur ki, erməni cəmiyyətinin bu vaxta qədər aldandığı miflərdən yaxa qurtarmasına mane olmaq üçün əldən-ayaqdan gedir və deməli, hələ də təxribat törətmək niyyətindədir. Bir sözlə, o, dini libaslı təxribatçıdır və belə biri olduğunu heç gizlətmək fikrində də deyil.

Qondarma qurumun buraxılması, cari ilin ilk günündən tamamilə tarixin arxivinə düşməsi barədə həmin o qondarma rejim rəhbəri tərəfindən də, Ermənistan hakimiyyəti tərəfindən də fikirlər səsləndirildiyi, onun artıq keçmişdə qaldığı etiraf edildiyi halda, bu II Qareginə nə düşüb ki, "bizim üçün heç vaxt keçmişə çevrilməyəcək", deyə sayıqlayır? Bununla nə demək istəyir? Demək istəyir ki, sərsəm ideyaların, yalançı miflərin dalınca ermənilər bundan sonra da düşməlidirlər və yenidən məsələ qızışdırılmalıdır? "Biz Qarabağ xalqının hüquqlarını qorumaq üçün hər cür səy göstərərək onu qəlbimizdə və ruhumuzda yaşatmağa davam edəcəyik", deməklə II Qaregin əslində, öz sözlərinə heç özünün də inanmadığını göstərmiş olub. Göstərmiş olub ki, reallıqda olmayan bir məsələyə öz ruhunu da olsa inandırmağa çalışır. Nəinki dünya ölkələrinin heç biri, eyni zamanda, Ermənistan özü belə qondarma rejimi tanımadığı halda, onun belə cəfəngiyyat səsləndirməsi təxribatdan başqa bir niyyət üçün hesablana bilməz. Bir halda ki, Ermənistan məhz Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edibsə, deməli, hansı erməninin, hansı şəkildə ifadə etməsindən asılı olmayaraq, qalan fikirlər boş və mənasız səslənir və yalnız təxribatçılıq niyyətindən xəbər verir.

Kimdir bu II Qaregin və görəsən, 44 günlük müharibənin başlanmasından dərhal sonra Qarabağdan qaçaraq öz canını götürüb aradan çıxan biri kimi, hansısa çağırış etməyə, ümumiyyətlə, danışmağa haqqı çatırmı? Həmin bu "müqəddəs ata" ABŞ kimi bir dövlətə qaçmaq, orada özünü "rahatlamaq" üçün lazım olan vəsaitləri, pulları Qarabağ talan edildiyi zaman kəsiyində, 30 il müddətində "müqəddəs" yollarla qazanmışdımı? Əgər elə bir iddiadadırsa, o zaman desin görək, qalan sıravi ermənilər niyə belə "müqəddəs" yollarla qazana bilməyiblər və onun paylaşdırdığı mənzilləri, evləri də qoyub onlar nə üçün çıxıb gediblər Ermənistana və nə səbəbə İrəvanın küçələrində məskunlaşıblar, Amerikanın hansısa bir şəhərində yox? Məlum məsələdir ki, həmin o ermənilər deyil, II Qaregin özü yetərincə vəsait əldə edib. Özü də qanunsuz və əsassız şəkildə mənzilləri, evləri pul müqabilində paylamaqla, vardövlət sahibi olub. Həmin evlər, həmin mənzillər onun dədəsinə məxsus deyildi, amma paylayırdı və məhz bu yolla sərvət əldə edib. O, illər boyu məhz azərbaycanlılara qarşı qızışdırdığı adamlardan fərqli olaraq, onlar üçün yox, özü üçün rahat həyat təmin etmək haqqında düşünüb.

Göründüyü kimi, dini libas geymiş, dini libaslı erməni təxribatçılar erməni cəmiyyətini yox, özlərini fikirləşiblər və yenə də eyni fikirdədirlər. Onlar hər zaman erməni xalqını müharibələrə sövq ediblər və bundan öz faydaları üçün istifadə etməyi məqbul sayıblar. Separatizmi, qonşu dövlətlərə qarşı ərazi iddialarını, işğalçılığı, təxribatçılığı qızışdıranlar özlərini "müqəddəs ata" kimi göstərməyə çalışıblar. Erməni kilsələrinin silah anbarı kimi istifadə edilməsinə rəvac verənlər özlərini deyil, erməni xalqını fəlakətlərə sürükləyiblər və hələ də daha böyük fəlakətlərə sürükləmək niyyətindədirlər. Yalanlarla, uydurmalarla dolu fikirlər səsləndirməklə, təxribatçılığı hələ də təbliğ etməkdədirlər. Bununla da erməni xalqını məhvə doğru apardıqlarının guya ki, fərqində deyillər. Əslində isə, bilirlər ki, kütləni bundan daha ağır vəziyyətə salacaq duruma aparırlar. Amma buna məhəl qoymurlar. Çünki öz mənafelərini, özlərini düşünürlər və qalan ermənilər onların heç vecinə də deyil və təxribatçılıqla məşğul olmaqdan da buna görə qətiyyən çəkinmək istəmirlər.

Özünün belə təxribatçı məzmunlu əvvəlki moizələri ilə Yerablurun böyüməsinə səbəb olduğuna görə II Qregin qətiyyən nə utanmaq və nə də bir din xadimi kimi, tövbə etmək niyyətində görünmür. Yenə də təxribatçı fikirlər səsləndirərək, qan tökülməsinə gətirib çıxaran hadisələrə rəvac verməkdədir. Digər dini libaslı ermənilər də onun kimi, erməni xalqını, erməni cəmiyyətini faciələrə doğru aparmaq niyyətindədirlər. Məqsəd yenə də eynidir, dəyişməz olaraq qalır və özlərinin zəngin olmaları, vəziyyətdən istifadə edərək faydalanmaları üçün təxribatçılıq edərək erməni xalqını qızışdırmaq, odalov içərisinə atmaq fikrindədirlər. Onlar "müqəddəs ata" yox, dini libaslı təxribatçılardırlar və erməni cəmiyyəti bunu nə qədər tez başa düşsə, onların təxribatlarına uymasa, fəlakətlərdən və facilərdən bir o qədər tez yaxa qurtarmış olar.

**İnam Hacıyev**

# Bədbəxt hərflər, nakam sözlər, talesiz durğu işarələri...

***1875-ci il aprelin 21-də də Mirzə Fətəli Axundzadə Həsən bəy Zərdabiyə belə bir məktub göndərir: "Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır. Orfoqrafiyaya gəlincə, sizin gələcəkdə təyin edəcəyiniz mühərrir mənim Azərbaycan dilində olan komediyalarımın orfoqrafiyasına riayət etməlidir".***



"Əkinçi"nin nəşrə başlaması ərəfəsində ilk mətbuat orqanımız olacaq qəzet vasitəsilə dilimizin orfoqrafik qaydalarına məsuliyyətlə yanaşmağı tövsiyə edən Mirzə Fətəli Axundzadənin belə bir məktub yazması onun dilimizin təmizliyinin qeydinə qaldığının, bu dilin sahib olduğu zənginliklə birlikdə oxucu kütlələrinə çatdırılması istəyinin təzahürü idi. Çünki Axundzadə mətbuatın cəmiyyətin inkişafında, dilin təbliğində rolunun böyük olduğunu bilirdi. Elə buna görə də bu işə məsuliyyətlə yanaşmağı tövsiyə edirdi.

Allah sizə rəhmət etsin, Mirzə Axundzadə. Siz nəsil dilin təmizliyi, orfoqrafiya qaydaları uğrunda mübarizə apardınız və buna nail oldunuz da. Uzun illər sizin bu qələbənizdən bəhrələndik. Lakin nə bilərdiniz ki, zaman gələcək, Azərbaycan mətbuatı elə bir vəziyyətə düşəcək, bu mətbuatda elə jurnalistlər peyda olacaq ki, nə dildən, nə də onun orfoqrafik qaydalarından xəbəri olmayacaq. O zaman elə bu gündür. Hazırda kütləvi informasiya vasitələrində jurnalistlər var ki, onların ucbatından hərflər bədbəxtlik, sözlər nakamlıq, durğu işarələri ilə qara tale yaşayır.




### Xəcalət çəkən hərflər...

Hərflər "başbilən" jurnalistlərin əlindən qaçıb gizlənməyə yer axtarır. Çünki onlar o qədər yersiz işlədilir ki, hərflərin özü bundan utanır. Hərflər bizdən daha gözəl bilirlər ki, işlənən sözdə onların yeri var, ya yox. Məsələn, jurnalistlərimiz "əsl məsələ" əvəzinə, "əsil məsələ", "bizim əsrdə" əvəzinə, "bizim əsirdə", "bu mətndə" əvəzinə, "bu mətində", "servis xidməti" əvəzinə, "serviz xidməti", "atlaz parça" əvəzinə, "atlas parça", "hərfi məna" əvəzinə, "hərifi məna", "dövlət sənədi" əvəzinə, "dövlət sənəti", "xeyir, olmaz" əvəzinə, "xeyr, olmaz", "nəfs məhv edir" əvəzinə, "nəfis məhv edir" kimi yazanda hərflər utandığından gizlənmək istəyir. Lakin biz nə edirik, onları gizləndikləri yerdən zorla çıxarıb gətirib sözlərə artırıb öz savadsızlığımızı, orfoqrafiya qaydalarından xəbərsiz olduğumuzu nümayiş etdiririk.

Qoşa samitlə yazılan sözlər bəzi jurnalistlərin əlindən intihar etmək səviyyəsinə gəlib. Çünki hərflər "hədiyyə, tövsiyə, maliyyə" yazmaq istəyərkən, biz onları "tövsiyə", "maliyə", "hədiyə" edirik. Səciyyəvini "səciyəvi", dərrakəni "dərakə", "mürəkkə"bi "mürəkgəb", "səyyari"ni "səyari", "əziyyət"i "əziyət", "xasiyyət"i "xasiyət" kimi özünəgüvənlə yazırıq və düşünürük ki, bu qaydaları bizdən yaxşı bilən yoxdur.

Kömbə, kombinat, pambıq, kombayn, tramvay, qumbara, peyğəmbər, hambal sözləri orfoqrafik qaydalara əsasən (mb) ilə yazılır və tələffüz edilir. İstanbul, tənbəl, mənbə, minbər, şənbə, anbar, günbəz, qənbər, sünbül, zənbil, zanbaq və sair sözlər "nb" ilə yazılır, "mb" ilə tələffüz olunur. Lakin ən çox səhv yazılan sözlər də elə bu yazıq sözlərdir. "Mb" "nb", "nb" "mb" ilə yerli-yersiz mətbuatda tüğyan edir.

Təəssüf, tərəddüd, təəccüb, təəssürat, məəttəl sözləri bəzi jurnalistlərin onları bircə dəfə düzgün yazması üçün canlarını fəda edərlər. Lakin haradadır o jurnalistlər?.. Onlar nəinki bilmir, heç öyrənmək də istəmirlər. Bir dəfə orfoqrafiya kitabını açıb, qarşılarına qoyub bu bədbəxt sözlərin necə yazılışına baxmaq barədə düşünmürlər. Kitab nədir, indi hamımızın əlindəki telefonlara yerləşdirə biləcəyimiz sadə və asan lüğətlərdən belə istifadə ya ağıllarına gəlmir, ya bu barədə məlumatları yoxdur, ya da özləri haqqında o qədər yüksək fikirdədirlər ki, bunu rəva bilmirlər.

### İnsan kimi söz də nakam ola bilirmiş...

Sözləri hərflər yaratdığı üçün onlar bir-birinə qırılmaz tellərlə bağlıdır. Ona görə də hərflər haqqında yuxarıda söylədiklərimiz elə sözlərə də aiddir. Çünki bir hərfin yanlış yazılması ilə söz öz mənasını itirir, səhv sözlər isə anlaşılmaz cümlələri yaradır. Bu, əsla bəzi mətbuat nümayəndələrinin vecinə belə deyil. Çünki onlar yazdıqlarının düzgün olduğuna adları qədər əmindirlər.

Lakin sözlər bu münasibətdən çox incikdir. Axı söz yaxşı bilir ki, insan əsr deyil, əsir düşür. Sözləri hərflər yaratmır, hərflər yaradır, buna da əmindir. Mətndəki cümlələrlə mətindəki cümlələri də ayırd edə bilir söz. Nəfslə nəfisin ayrı-ayrı mənalarını da bizdən yaxşı bilir. Hələ atlazla atlası ayırd etməyən jurnalistlərə yol da göstərə bilər, söz. Əgər qulaq asarlarsa...

Söz deyir, mən "qızılgül"əm, biz yazırıq "qızıl gül". Söz deyir, mən "paltaryuyan"am, biz yazırıq "paltar yuyan". Söz deyir, mən "qab-qacaq"(ğ)am, biz nəinki mətbu orqanlarda, hətta dərsliklərdə "qab qacaq" yazırıq. İddia edirik ki, qoy uşaqlı-böyüklü hamı bunu bizim yazdığımız kimi qəbul etsin. Söz deyir, mən "mərhum"am, biz yazırıq "məhrum"uq.

Bəli, məhrumuq. Özümüz fərqində olmasaq da, çox məsələlərdən məhrumuq. Elə dilimizi, onun orfoqrafik qaydalarını bilməkdən məhrum kimi...




Bu yerdə Xalq şairi Osman Sarıvəllinin sözlərin düzgün işlədilməməsi, yersiz təkrarlara yol verilməsi ilə əlaqədar narahatlığını jurnalistlərə və redaktorlara ünvanladığı şeiri yada düşür:

Biz mənalı sözlərin keşiyində dururuq.  
Lakin söz var, onu çox  
İşlədirik, yoruruq.  
Aramsız çeynənən söz  
Üzdü dili, dodağı.  
Təkrar yordu qələmi,  
Yordu gözü, qulağı.  
Həqiqətən ağırdır  
İnsafla baxsaq əgər,  
Çox da ki, yoxdur dili,-  
Söz də dincəlmək istər.

### Talesiz durğu işarələri...

Durğu işarələrinin bugünkü vəziyyətini görəndən sonra bu qənaətə gəlirəm ki, talesizlik tək insanın nəsibi olmurmuş. Durğu işarələrinin də bu fani dünyada bəxti gətirməyə bilərmiş. Mətbuat nümunələrində gördüyümüz mənzərə durğu işarələrinin talesizliyindən söhbət açır.

Bəzən elə kitab, elə məqalə ilə qarşılaşırıq ki, durğu işarələrinin buradan tamamilə qovulduğunun şahidi oluruq. Deyirsən, haradadır görəsən bu durğu işarələri? Sanki payız küləyi gəlib onları qarşısına qalıb aparıb haradasa xəzəl yarpaqların altında gizlədib. Bu səbəbdən də onların birini belə görmək mümkün deyil.

Bəzən isə durğu işarələri yersiz işlədilir ki, bu zaman onların daha talesiz olduğu ortaya çıxır. Çünki oxuyarkən vergülü danlamağa başlayırıq ki, burada artıqdır, ya da burada nə üçün yoxdur,-deyirik. "O, diyar başdan-başa gözəllikdir. O Vətən oğludur" kimi cümlələrlə vergülü çətin bir vəziyyətə qoyuruq. "Bu bizim qərarımızdır. Bu, tərəf meşəlidir" cümlələri ilə işarə və şəxs əvəzliklərini bir-birinə qurban edib yeni bir orfoqrafiya qaydası yaradırıq.

Bəzən nöqtələr fikrimizi tamamlamır, bəzən sual verdiyimiz halda sual işarəsinə ehtiyac duymuruq, bəzən nida cümləsində nida işarəsinə lüzum görmürük. Beləliklə də durğu işarələrinin üzərindən bir xətt çəkib onları öz qara bəxtləri ilə baş-başa buraxırıq. Durğu işarələri ilə bağlı Facebook sosial şəbəkəsində 25 mart 2020-ci il tarixdə Beyləqanlı adlı şəxsin statusunda paylaşdığı bir yazı da mənə çox maraqlı gəldi, düşündüm ki, sizlər üçün də maraqlı olar:

İtirilmiş durğu işarələri....

"Bir gün insan vergülü itirdi. O zaman fikirləri bir-birinə qarışdı, mürəkkəb cümlələr qurmaqdan qorxdu. Bəsit cümlələr qurmağa başladı. Cümlələri bəsitləşdikcə, fikirləri də bəsitləşdi.

Nöqtəni itirdi... Fikirləri uzandıqca uzandı. İfadə edə bilmədi özünü.

Başqa bir gün nidanı itirdi. Səs tonunu dəyişdirmədən danışmağa başladı, monotonlaşdı. Ətrafda baş verən heç bir şey onda kiçik bir həyəcan belə doğura bilmədi. Sevincini, qəzəbini - bütün duyğularını itirdi.



Sual işarəsini itirdiyi andan sual verməyi unutdu. Hər şeyi olduğu kimi qəbul etməyə başladı. Nə dünya, nə insanlar, nə də həyat onu maraqlandırmadı.

İki nöqtəni itirdi və heç nəyi aydınlaşdırmaq ehtiyacı duymadı.

Həqiqətən də belədir. İtirə-itirə, ehtiyac duymaya-duymaya gedirik. Həm də faciəvi tərəfi ondadır ki, dilin qeydinə ən çox qalmalı olan biz mətbuat işçiləri itirməkdən əsla məyus olmuruq. Və düşünmək də istəmirik ki, yazdığımız hər bir söz düzgünlüyü ilə də, səhvliyi ilə də minlərlə insanın göz yaddaşına çevrilir. Minlərlə gəncə guya ki, düzgün yazı qaydalarını təbliğ edirik. Əslində isə yox...

Nəticədə isə, dilim-dilim doğrasalar da, dilimizdən dönən deyilik,- dediyimiz təqdirdə öz əllərimizlə dilimizi dilim-dilim edib yerə səpələyirik. Bəlkə aradabir lüğətə baxaq... Çox vaxt aparmaz, inanın!

***Mətanət Məmmədova***

## ABŞ-ın Ermənistanı münaqişə ocağına çevirməsində

# GİZLİ NİYYƏTLƏR

***Ermənistanda ordunun döyüş qabiliyyətinin ciddi şəkildə artırılacağı barədə son günlər erməni cəmiyyətində fikirlər səsləndirilir. Müdafiə naziri Suren Papikyan özü də bu barədə, yəni ordunun döyüş qabiliyyətinin artırılacağı barədə açıqlayıb. Bütün bunlar, yəni ordu ilə, onun gücləndirilməsi ilə bağlı deyilənlər heç şübhəsiz ki, təsadüfi deyil və görünür, Amerika Birləşmiş Ştatlarının Ermənistanda Çavuş Korpusunun inkişafına, formalaşdırılmasına, təşkilinə dəstək verməsi erməni cəmiyyəti üçün cəlbedici görünüb.***











Diqqətə çatdıraq ki, ABŞ-ın Avropa Komandanlığının mayoru Robert Aberneti məhz Ermənistan Silahlı Qüvvələrinin Çavuş Korpusunun hazırlanması üçün İrəvanda olub. Bu barədə ABŞ-ın Avropa Komandanlığı da məlumat yayıb və belə bir məlumatı açıq şəkildə yayması da müəyyən məqamlardan xəbər verir. "Amerika Birləşmiş Ştatları Ermənistanda Çavuş Korpusunun inkişafına, formalaşdırılmasına və təşkilinə dəstək verir", - deyə ABŞ-ın Avropa Komandanlığının məlumat yayması heç də təsadüfi sayıla bilməz. Görünür, ABŞ regionda hansısa niyyətlərinin olduğunu gizlətmək belə istəmir və açıq şəkildə etiraf belə etməkdən çəkinmir. "Bu yaxınlarda ABŞ-ın Avropa Komandanlığının mayoru Robert Aberneti Ermənistan Silahlı Qüvvələrinin Çavuş Korpusunun hazırlanması üçün İrəvanda olub. Gələcək üçün daha güclü tərəfdaşlıq qurulur", - deyə məlumatda bildirilir və qeyd olunanlar istənilən halda, Vaşinqtonun məhz Cənubi Qafqazla bağlı hansısa planlar qurduğunu, hansısa niyyətlərinin olduğunu isbatlayır.

Maraqlıdır, ordunun döyüş qabiliyyətinin ciddi şəkildə artırılması Ermənistanın indiki məqamda nəyinə lazımdır? Sülh təşəbbüsünün ortada olduğu bir məqamda, sülhə doğru addımlar atıldığı bir anda və heç zaman olmadığı qədər sülhün daha yaxın olduğu bir zamanda ordunun döyüş qabiliyyətinin ciddi şəkildə artırılmasında Ermənistan niyə maraqlı olmalıdır? Bütün bunlar nədən xəbər verir? Ümumiyyətlə, planlar nədən ibarət ola bilər və nəticəsi nə vəd edir? Sözüz ki, suallar məntiqidir və istənilən halda, təkcə bizim üçün deyil, ümumilikdə region ölkələri üçün də olduqca maraqlı hesab olunur. Çünki ABŞ-ın hərbi əməkdaşlıq, Çavuş Korpusunun inkişafına, formalaşdırılmasına və təşkilinə dəstək vermək adı altında Ermənistanı münaqişə ocağına çevirməsi ilə bağlı gizli niyyətləri region ölkələri üçün də nəzərə alınmayacaq məqam sayıla bilməz.

Sözsüz ki, bu məqamda, hazırkı dönəmdə, yəni, sülh təşəbbüsünün ortada olduğu bir zamanda Ermənistana heç də ordunun döyüş qabiliyyətinin ciddi şəkildə artırılması yox, danışıqlar prosesinin ciddi şəkildə intensivləşdirilməsi vacibdir. Sülh prosesi ilə bağlı məsələlərin müzakirəsi, qərarların qəbul edilməsi bu gün rəsmi İrəvanın qarşısında duran ən vacib məsələ olmalıdır. İndi bütövlükdə erməni cəmiyyəti bilməlidir ki, sülh daha çox Ermənistana lazımdır. Bilməlidir ki, sülh olmadan Ermənistan heç nəyə nail ola bilməz. Bu baxımdan, artıq ermenilər fərqində olmalıdırlar ki, sülhün imzalanması Azərbaycandan çox Ermənistanın özünə lazımdır. Belə olan halda, erməni cəmiyyəti ordunun döyüş qabiliyyətinin ciddi şəkildə artırılmasına qətiyyən maraq göstərməməlidir. Əgər maraq göstərirsə, deməli, erməni cəmiyyəti, Ermənistan hakimiyyəti hadisələrdən, başlarına gələn fəlakətlərdən hələ də doğru, düzgün nəticə çıxara bilməyib və hansısa qüvvələrin oyunlarına bundan sonra da alət olmaqla, həmin ölkəni münaqişə ocağına çevirməkdə, özləri üçün növbəti fəlakətə də rəvac verməkdədir.

Doğrudur, Ermənistan və eləcə də həmin ölkənin ordusu əvvəllər də Amerika Birləşmiş Ştatları ilə müəyyən proqramlar çərçivəsində əməkdaşlıq edib. Bu, heç də sirr deyil. O da sirr deyil ki, heç də bu əməkdaşlıq nə Ermənistanın ordusuna xüsusi döyüş qabiliyyəti qazandırmayıb, nə də ordunun döyüş qabiliyyətinin ciddi şəkildə artmasına səbəb olmayıb. Bir sözlə, ABŞ-la hansısa proqramlar çərçivəsində əməkdaşlıq etməklə, Ermənistanın ordusu nə isə əldə etməyib və bu dəfə də, bundan sonra da hansısa əməkdaşlıq, eləcə də Amerika Birləşmiş Ştatlarının Ermənistanda Çavuş Korpusunun inkişafına, formalaşdırılmasına və təşkilinə dəstək verməsi ermənilər üçün nəyi isə dəyişən deyil. Amma nədənsə, bu vaxta qədər olan və heç bir mahiyyəti olmayan əməkdaşlığın daha da genişləndirilməsi indi ortaya atılıb. Hətta bu zamana qədər olan bəzi proqramlar çərçivəsindəki əməkdaşlıq indi ordunun döyüş qabiliyyətinin ciddi şəkildə artırılması ilə bağlı əməkdaşlıq üçün bir bəhanə olaraq qəbul edilməkdədir.

Bilirik ki, son zamanlar Ermənistanın Hindistandan da silah-sursat alması barədə məlumatlar həmin ölkənin mətbuat səhifələrinin özündə belə qeyd olunur. İnanmaq olmur ki, ermənilər Hindistandan aldıqları yararsız silahlarla nə isə əldə etdikləri qənaətində ola bilərlər. Çünki baş nazir Nikol Paşinyandan tutmuş sıravi ermeniyə qədər hər bir Ermənistan vətəndaşı başa düşməlidir ki, ölkənin boş olan arsenalını bir neçə silahla doldurmaq mümkünsüzdür. Artıq ermənilər başa düşməlidirlər ki, onların bir ölkədən hansısa hərbi texnika, silah-sursat alması, eləcə də indi Amerika Birləşmiş Ştatlarının Ermənistanda Çavuş Korpusunun inkişafına, eləcə də formalaşdırılmasına və təşkilinə dəstək verməsi Ermənistanın hərbi potensialının artması demək deyil. Bütün bunlar, yəni, silah alışından tutmuş hərbi əməkdaşlığa qədər heç nə Ermənistan üçün müsbət nəticə vəd etmir. Əksinə, sülh prosesini ləngidir və həmin ölkəni çətin durumdan çıxmağa qoymur.

Dəfələrlə qeyd olunub ki, istər Fransanın Ermənistana silah göndərməsi, istər ABŞ-ın hərbi əməkdaşlığı, istərsə də Qərb tərəfindən göstərilən hər hansı dəstək İrəvanın maraqları naminə olmayıb. Ermənistana olan istənilən dəstək məhz həmin dəstəyi göstərənlərin öz maraqları üçün hesablanıb. Heç zaman ermənilərin maraqları müzakirə mövzusu belə ola bilməz. Qərb hər zaman Ermənistandan bir alət olaraq istifadə edib və görünür, bunu artıq ənənə olaraq qəbul edib. Məhz elə bu fonda indi də Ermənistanın maraqlarından söhbət gedə bilməz. Çünki Amerika Birləşmiş Ştatları Ermənistanda Çavuş Korpusunun inkişafına, formalaşdırılmasına və təşkilinə dəstək vermək adı ilə Cənubi Qafqazda özünə "yer etmək" niyyətindədir. Nəzərə almaq lazımdır ki, Ermənistan ərazisində yerləşən ən böyük diplomatik korpus da məhz ABŞ-a məxsusdur və məhz bu, diqqəti çəkən məqamdır. Həmin o diqqəti çəkən məqam ondan ibarətdir ki, məzh Ermənistandan istifadə edərək, həmin ölkəni münaqişə ocağına çevirərək, rəsmi İrəvan alət edilərək, Cənubi Qafqazla bağlı planlar işə salınır.

Qərbin Rusiya ilə bağlı niyyətinin nədən ibarət olduğu bəllidir. Bəllidir ki, Rusiyanın sıxışdırılıb "meydandan" çıxarılması Qərb üçün ən maraqlı məsələ hesab olunur. Ukraynanı qızışdıran, bununla da Rusiyanı hədəfə alan Qərb üçün Ermənistanı "oynatmaq" heç də çətin deyil, əksinə, daha asandır. Onsuz da Ermənistan hakimiyyətinin, eləcə də erməni cəmiyyətinin Rusiya əleyhinə məsuliyyətsiz fikirlər səsləndirməsi, bunun da artıq rəsmi Moskvanın diqqətini cəlb etməsi göz önündədir. O da sirr deyil ki, qızışdıran və təhrik edən də məhz Qərb özüdür. Əbəs yerə deyil ki, Rusiya rəsmiləri artıq bununla bağlı fikirlərini də gizlətmirlər və Ermənistana müvafiq ciddi mesajlar da verirlər. Deməli, Qərb artıq Ermənistanı çoxdan alət edə bilib və bu, belə də qəbul olunur. Üstəlik, indi Ermənistanın baş naziri olan Nikol Paşinyan da məhz onların layihəsi olaraq ələ keçirdiyi öz hakimiyyətinə görə Qərb qarşısında özünü borclu hesab edir və bu baxımdan ABŞ çox rahatlıqla Ermənistanı ələ aldığı, ondan istifadə edəcəyi qənaətindədir. Bütün əməkdaşlıqlar da, dəstək də, yardım da və bu kimi nə varsa hamısı Ermənistanı alət olaraq istifadə etmək və bununla da strateji əhəmiyyətə malik olan Cənubi Qafqazda özünə "yer etmək", beləliklə də, məhz Rusiyaya qarşı hərəkət etmək üçün müəyyən imkanlar qazanmaq niyyətilədir.

İlk baxışdan hərbi əməkdaşlıq kimi görünən həmin o, Amerika Birləşmiş Ştatlarının Ermənistanda Çavuş Korpusunun inkişafına, formalaşdırılmasına və təşkilinə dəstəyi, əslində, Ermənistan və Rusiya arasındakı hərbi müqavilələrin, köhnədən olan əməkdaşlıqların aradan qaldırılmasına hesablanıb. İndi Ermənistanda, Rusiyanın 102-ci hərbi bazasının ölkədən çıxarılması ilə bağlı müzakirələrin intensivləşməsi də bu baxımdan başadüşüləndir. Deməli, erməniləri qızışdırmaq, onları ruslara qarşı qoymaq, bununla da Cənubi Qafqazdan Rusiyanı sıxışdırıb çıxararaq, regionda mövqe əldə etmək planı artıq göz önündədir. Rəsmi Moskvanı prsoslərdən kənarda qoymaq, həmin yeri tutmaq istəyi də çoxdan bəlli idi və Rusiyanın təşkili ilə keçirilən üçtərəfli danışıqların hər birinin ardınca Qərbin də "canfəşanlıq" etməsi deyilənləri təsdiq edir. Artıq haqqında qeyd olunan 102-ci baza ilə bağlı məsələnin gündəmə gəldiyi zamanda ABŞ tərəfinin belə bir hərbi əməkdaşlıq meyillərinin nəyə hesablandığı da gün kimi aydın olur. Aydın olur ki, belə hərbi əməkdaşlıqlarla, bir mayorun İrəvanda təlimlər keçirməsi ilə Ermənistan tərəfinin ordusunun potensialının gücləndirilməsinin mümkün olmadığını, həmin potensial üçün ən azından kifayət qədər zaman tələb olunduğunu yaxşı bilən ABŞ, indi də Ermənistanı münaqişə ocağına çevirməyi hesaba belə almadan öz gizli planlarını, niyyətlərini həyata keçirməyə çalışır.

***İnam Hacıyev***

# Evimizi necə isti saxlayaq?

***Məlumdur ki, hər birimizin yay aylarında kondisionerlər xilaskarımızdır. Bununla yanaşı, kondisionerlər yay qədər qış fəslində də istifadə olunur. Bu araşdırmada qışda kondisionerlə evi isti saxlamaq üçün məsləhətlər və qışda kondisionerinizi ən səmərəli şəkildə necə işlətmək barədə məsləhətlər haqqında danışacağıq.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Qışda kondisionerlə isinmək zərərlidir?

Çoxumuz kondisionerlərimizi yalnız otağı sərinlətmək üçün istifadə etsək də, əslində qış aylarında kondisionerlə isinmək mümkündür. Müasir kondisionerlər həm yayda, həm də qışda temperaturu sizin seçimlərinizə uyğun tənzimləyə bilir. Qışda kondisionerlə isitmə cihazın funksiyasını dəyişdirir və evinizi soyuq əvəzinə isti hava ilə doldurur. Həm də bu vəsilə ilə ayrıca istilik sistemi almaq xərclərinə qənaət edirsiniz. Lakin effektiv istilik üçün yadda saxlamalı olduğunuz bəzi ehtiyat tədbirləri var.

## Qışda kondisionerlə isinmək

Həm soyutma, həm də isitmə funksiyalarına malik olan dörd mövsüm kondisionerdən istifadə etməklə evi isti saxlamaq mümkündür. Məsələn, otağınız həddindən artıq istiliyə görə çox havasızdırsa, kondisionerinizi fan rejimində yandırıb otağın havaslnı bir az daha rahatlada bilərsiniz. Unutmaq olmaz ki, kondisionerinizi qışda istifadə edə bilsəniz də, onun effektivliyi yaydan fərqli olacaq.



İnsanlar və digər məişət texnikası kimi, kondisionerlərin də minimum işləmə həddi var və onlar bu həddən aşağı işə salındıqda, nəzərdə tutulduğu kimi işləməyəcəklər. İşləmə temperaturu üçün bu minimum hədd kondisionerin markasından, modelindən və ya növündən asılı olmayaraq bütün kondisionerlərə aiddir. Əksər istehsalçılar açıq havanın temperaturu 25 dərəcədən aşağı düşdükdə kondisionerdən istifadə etməyi məsləhət görmürlər. Dörd mövsüm xüsusiyyəti olmayan kondisionerin 15 dərəcədən aşağı temperaturda işlədilməsi soyuducunun fərqli davranmasına səbəb olacaq və kondisioner nəzərdə tutulduğu kimi işləməyəcək.

Bundan əlavə, qışda kondisionerin bu temperaturdan aşağı işləməsi cihazın soyuducu borularının donması, sürtkü yağının qalınlaşması və hərəkət edən hissələrin zədələnməsi kimi arzuolunmaz nəticələrə səbəb ola bilər.

## Kondisionerlər sizi qışda necə isidir?

Soyuq aylarda kondisionerlərin necə işlədiyini başa düşmək üçün əvvəlcə geri çevrilə bilən kondisionerlərin nə olduğunu bilməlisiniz. "Reversiv kondisionerlər" olaraq da bilinən bu qurğular soyutma rejimi ilə yanaşı, istilik rejiminə də malikdir. Müasir kondisioner modellərinin əksəriyyəti indi bu şəkildə dizayn edilir və satılır.

İstilik və soyutma üçün ayrı bir cihaza sahib olmaq əvəzinə, sizi isti saxlamaq üçün kondisionerdən istifadə edə bilərsiniz. Tərs çevrilə bilən mini split kondisioner məhz bunu edir. Nəticədə siz yayda sərin, qışda isti saxlamaq üçün eyni cihazdan ilboyu istifadə edə və eyni enerjiyə qənaət funksiyalarından yararlana bilərsiniz. Normal kondisioner isti mühitdən (qapalı) daha soyuq bir mühitə (açıq) ötürür. Bu sistem yayda yaxşı və təsirli olur. Amma qış aylarında kondisioner xaricdən istiliyi götürüb içəriyə ötürür. Bunun üçün kondisioner tərs rejimdə işləməlidir. Kondisionerlərdə isitmə funksionallığına nail olmaq üçün tərs klapan kimi tanınan kiçik bir cihaz istifadə olunur. Tərs çevrilə bilən kondisionerlər gözəl bir ixtiradır və yayda soyuyan, qışda isə bunun əksini edən bir qurğu istəyən hər kəs üçün idealdır.

## Qışda kondisioneri işə salmağın zərəri varmı?

Bu sualın cavabı bəli və ya yox qədər sadə deyil. Bu vəziyyətə təsir edən bir çox faktor var. Qışda kondisionerin işləməsinin də riskləri mövcuddur. Orta dərəcədə aşağı temperaturda kondisionerin istənilən rejimdə işləməsi tamamilə məqbuldur. Bununla belə, kondisionerinizin 15 dərəcədən aşağı temperaturda işlədilməsi üçün müəyyən risklər var. Onlardan bəzilərini təqdim edirik:

Yağlamanın itirilməsi: Kompressorlar kondisionerin tərkib hissəsidir və nəzərdə tutulduğu kimi işləmək üçün əla vəziyyətdə olmalıdır. Sürtkü yağları kompressorun rəvan və səhvsiz işləməsinə kömək edir. Bununla belə, bu sürtkü qışda qalınlaşa bilər və gözlənildiyi kimi işləməyə bilər. Müvafiq yağlama olmadan kompressor zədələnməyə və tutmağa meyllidir.

Aşağı ətraf temperatur sensoru: Bəzi kondisioner modellərində kondisionerin həddindən artıq soyuqda işləməsinin qarşısını almaq üçün aşağı mühit temperaturu sensoru var. Bu sensordan yan keçməyə və aşağı temperatura baxmayaraq kondisionerinizi işə salmağa cəhd etsəniz, ciddi maliyyə tələb edən təmirlə qarşılaşa bilərsiniz.

Kompressorun həddindən artıq isinməsi: Hər hansı bir mexaniki cihazda olduğu kimi, kompressor istifadə zamanı isti olur. Həddindən artıq soyuqda içərini isti saxlamaq üçün kompressor çox işləməlidir. Bu həddindən artıq iş onun çox qızmasına səbəb ola bilər. Kondisionerin müəyyən edilmiş minimum temperaturdan aşağı istifadəsi onu geri dönməz şəkildə zədələyə bilər və ya ən yaxşı halda sizə bahalı texniki xidmət və təmir ziyanı ilə nəticələnə bilər.

Türkiyə Çukurova Universiteti Tibb Fakültəsi Yoluxucu Xəstəliklər və Klinik Mikrobiologiya Fundamental elm sahəsi dosenti həkim Behice Kurtaran qışda kondisionerlərin tənəffüs yoluxucu viruslarl ötürmə ehtimalının daha çox olduğunu bildirib.

Qışda isitmə, yayda isə soyutma üçün istifadə olunan kondisionerlərin təmirinin çox vacib olduğunu vurğulayan Behice Kurtaran, mütəxəssislərin tövsiyə etdiyi qədər kondisionerlərə baxım lazım olduğunu bildirib. Kondisionerlərin zərrəcikləri saxladıqları kameralarının olduğunu izah edən Kurtaran, "Bu kameralar təmizlənməsə, hər hava sirkulyasiyası zamanı hissəciklərin ətraf mühitə yayılma riski var. Baxımın olmaması mikrob daşıyan hissəciklərin gözləməsinə və çoxalmasına səbəb olur".

## Otaq temperaturu 22 dərəcə olmalıdır

Bəzi mikroorqanizmlərin və virusların rütubətli mühitlərdə sürətlə çoxalıb yayıla bildiyini vurğulayan Behice Kurtaran bunları qeyd edib:

"Adətən qışda pəncərələr bağlanır. Baxımsız kondisionerlər bu mühitdə işə salındıqda, biz mikrob daşıyıcı hissəcikləri nəfəs alaraq uduruq.

Qidalanma, qocalma və müqaviməti aşağı olan insanların KOAH, xroniki xəstəliklər kimi tənəffüs yolu xəstəlikləri riski var. Qış mühitində tənəffüs yolu infeksiyalarına səbəb olan viruslar çoxaldığından kondisionerlərin baxımının əhəmiyyəti daha da artır. Çünki bu viruslar soyuqda daha çox arta bilər.

## Qışda evi isti saxlamağın ən yaxşı yollarını aşağıdakı kimi sadalaya bilərik.

- Olduğunuz mühit soyuq havaya qarşı qorunmalıdır.



- Radiatorlara qulluq edin
- Pətəklərin temperaturunu sabit saxlayın
- Pətəkləri soyuqdan qoruyun
- Soyuq hava axınının qarşısını alın
- İstiliyin içəridə səmərəli paylanmasını təmin edin

**- Alüminium folqa istifadə edin**

Pətək radiatorları divara qarşı qoyularsa, istilik itkisi qaçılmazdır. Xüsusilə pətəyin yerləşdiyi hissə çölə baxırsa, divarla pətək arasına alüminium folqa qoymağı məsləhət görürük. Yəni, pətək radiatorunun arxasındakı divara alüminium folqa yapışdırın.

**- Qalın pərdələr seçin**

Qalın pərdələrdən istifadə soyuq havanın pəncərələrdən keçməsinin qarşısını alır. İstilik və izolyasiya xüsusiyyətlərinə malik pərdələrlə yanaşı qalın pərdələrdən istifadə etmək faydalıdır. Pəncərələr arasındakı boşluqlar üçün də süngərdən istifadə etməyi məsləhət görürük.

Pərdələriniz gün ərzində günəş işığını qəbul edə bilməlidir. Gecələr qalın pərdələr çəkə bilərsiniz. Bu zaman günəş şüaları evinizin içini isitəcək.

**- İkiqat şüşəli pəncərələri seçin**

Qışda evi isti saxlamağın başqa bir yolu evdə ikiqat şüşəli pəncərələrin olmasıdır. İkiqat şüşəli pəncərələr daha az soyumağa imkan verir və evdəki istiliyi buraxmadan saxlayır.

**- Kiçik deşikləri örtün**

Evinizdə hava axınına və soyuq havanın keçməsinə imkan verən kiçik dəliklər ola bilər. Ümumiyyətlə, bu çatları və deşikləri şüşə, qapı boşluqları və pəncərə boşluqlarını möhürləməyi tövsiyə edirik.

**- Qapıların altını örtün**

Qapıların altını örtmək üçün sadə süngərlərdən əlavə dekorativ məhsullar da istifadə olunur.



Yaşlı nəsillərdən öyrənə biləcəyimiz başqa bir şey, xarici qapının alt hissəsi ilə döşəmə arasındakı boşluğu bağlamaq üçün sadə materiallardan istifadə etməkdir.

Bunun üçün siz qapının altından izolyasiya süngəri ala bilərsiniz.

**- Radiatorun təmizlənməsi**

Radiatorunuzu təmizləmək istilik keçiriciliyini yaxşılaşdırır. Radiatorların qarşısında böyük əşyaların qoyulmaması istiliyin otaqda daha səmərəli yayılmasına imkan verir.

**- Radiatorun üstündəki rəf**

Radiatorun üstündə rəf yerləşdirmək istiliyi otaqda daha yaxşı paylaya bilər. Ancaq radiatorun üzərinə birbaşa bir şey qoymamaq vacibdir. Xüsusilə radiatorların pəncərələrin altında olduğu hallarda, pərdə çəkilərkən pərdə ilə pəncərə arasında isti hava qala bilər.



Bu cür rəflər həmin vəziyyətlərdə daha da əhəmiyyət kəsb edir.

**- İstifadə olunmayan otaqlar**

Evinizdə istifadə etmədiyiniz otaqlar varsa, radiatoru söndürün və otağın qapısını bağlı saxlayın. Beləliklə, soyuq hava evin qalan hissəsinə yayılmır.

**- Döşəmənin də izolyasiyası var**

Döşəməni evdə bir şeylə örtmək istilik izolyasiyasını artırır. İngiltərədəki Milli Enerji Fondunun məlumatına görə, istilik itkisinin 10%-ə qədəri evlərin döşəmələrindən qaynaqlana bilər.

Taxta döşəmələr digərlərindən daha yaxşı olsa da, hələ də istilik itkisindən qorunmur.

Bunun qarşısını almaq üçün xalça və ya kilimlərdən istifadə etməyi düşünə bilərsiniz. Bunlar izolyasiyanı artırır və ayaqlarınızı daha isti saxlayır.

*Ayşən Vəli*

ARAŞDIRMA

# Texnoloji terror: bizi nələr gözləyir?

## Ölkəmizdə beli əyilmiş, gözü zəifləmiş, çəkisi artmış nəsil yetişir



**Texnologiyanın insanlar üçün vacib olduğu cəmiyyətimizdə bu vəziyyət uşaqlar üçün də vacib hala çevrilir. İnformasiya əsrinin gətirdiyi texnoloji yeniliklər sayəsində həm sürətli informasiya ala bilirik, həm də zamanla həm özümüz, həm də övladımız ondan asılı vəziyyətə düşür.**

### Uşaqları işimizə qurban veririk

Düzdür, texnoloji yeniliklərin bizə təklif etdiyi hər şeyi doğru və lazımlı yöndə istifadə işimizi asanlaşdırır, faydalı iş əmsalını artırır. Bununla yanaşı gündəlik həyatımızı, sosial münasibətlərimizi də onun sayəsində qurmağa çalışırıq. Bu isə zamanla uşaqlara sirayət edir. İndi evlərimizdə telefon və planşetlərdən, kompyuterdən asılı olan nəsil böyüyür. Təəssüf ki, hər gün artan texnologiya asılılığı uşaqlar üçün böyük təhlükə yaratmaqdadır.

Həyat tərzimizin getdikcə dəyişməsi, işləyən anaların sayının artması, oyunların onlayn müstəviyə keçməsi, əvvəlki kimi yoldaşlıq, dostluq əlaqələrinin olmaması uşaqları kompyuter ekranlarına bir az da yaxınlaşdırır. Televizor, planşet, telefon, kompyuterlə evdə hər addımda rastlaşan uşaq onun gün-



dəlik oyun üçün nəzərdə tutulduğunu düşünür. Xüsusilə də məktəblərdə dərslərin kompyuterlə tədris edilməsi bu problemin böyüməsinə səbəb olur. Düzdür, texnoloji yeniliklər dövründə bu uşaqlarımızın üstünlüyüdür, amma hər uşaq əlində bir kompyuter, limitsiz internetlə istədiyi onlayn platformada gəzə, oyun oynaya, film izləyə bilir. Həm də valideyndən xəbərsiz...

### Zəif, xəstəhal nəsil yetişir

Texnologiya düşkünlüyü uşaqların fiziki, ruhi və psixoloji sağlamlığına mənfi cəhətdən təsir edərək bir çox xəstəliyin əsasını qoyur. Pediatr Pəri Həsənova deyir ki, texnoloji asılılığı olan uşaqlarda ən çox rastlanan əlamətlər zəif görmə, ikili görmə, düzgün oturmamaq, onurğa əyriliyi kimi problemlərdir: "Belini düzgün tuta bilmədiyi üçün onurğasında əyrilik yaranan uşaqlarımız çoxdur. Üstəlik siniflərdə müəllimlər də daha o qədər çox nəzarət etmir, uşaqlar az qala partanın üstünə uzanaraq yazır. Kompyuter qarşısında o qədər hərəkətsiz, eyni formada dayanırlar ki, sonra qəddi düzəltmək çətin olur".

Həkim deyir ki, hərəkətsizliyin başqa bir ciddi nəticəsi də piylənmədir: "Saatlarla kompyuter qarşısında oturan, yeməyini belə oyun oynaya-oynaya yeyən uşaqlarda çəki artır. Hərəkətsizlik ən çox körpə ikən ana südü yeməyən uşaqlarda da rast gəlinir, aktiv həyat tərzi keçirmirsə və üstəlik onlayn həyatdan asılı vəziyyətdədirsə onda çəki sürətlə artacaq və piylənmə problemi meydana çıxacaq".

Texnoloji asılılığı olan uşaqların yuxu sistemi dəyişir, diqqətsizlik, etinasızlıq və əsəbilik normal hala çevrilir. İnternetdə keçirdiyi müddətlə bağlı ailədən xəbərdarlıq aldığı halda məhəl qoymaması, bəzən isterik hərəkətlər etməsi buna misal ola bilər. Həkimin sözlərinə görə təkrarlanan bədən hərəkətləri etməsi də uşağın texnoloji asılılığının bir nümunəsidir, məsələn oturduğu yerdə silkələnməsi, barmaqları ilə davamlı oynaması, evdə tez-tez o yan-bu yana gedib-gəlməsi.

### Texnologiya dərsi maraqlı edir?

Pedaqoq Qənirə Məmmədova isə deyir ki, dərslərdə istifadə edilən texnoloji aparatlar uşaqlar üçün öyrənmə rahatlığıdır: "Onlar kitablardan, standart mətnlərdən bezirlər, kompyuterdə maraqlı, şəkilli, cəlbedici formada tədris edəndə dərsə maraqları daha çox olur. Amma təbii ki, dərsdən əlavə vaxtlarını da onunla keçirmək istəyəndə qadağalar etmək lazımdır. Çünki asılılıq yarada bilir və uşaq dərsdən əlavə bütün vaxtlarını da onunla keçirmək istəyir".

Pedaqoq deyir ki, valideynlər evdəki internetə kod qoymaqla uşaqları müəyyən qədər texnoloji asılılıqdan xilas edə bilərlər: "Onların sevdiyi oyunların əksəriyyəti onlayn rejimdə oynanılır, əgər oyun üçün gündə müəyyən qədər vaxt təyin edilsə və yerdə qalan zamanlarda internet söndürülsə, kod qoyulsa uşağı asılılıqdan xilas etmiş olarıq. Həmçinin, uşaqlara



oyun yerinə maraqlı məşğuliyyətlər tapmaq olar, məsələn internetdə şəkil çəkmək üçün öyrədici saytlar var, plastilinlə nəsə düzəltmək üçün videolar var, belə şeylərlə başını qatıb oyunu yadından çıxarmaq olar".

Pedaqoq deyir ki, uşaqları texnoloji alətlərdən qoparıb dostları ilə oynamağa göndərmək vacibdir: "Valideynlər qorxur ki, uşaq həyətdə qaçıb yıxılar, əzilər. Ona görə onları evə həbs edirlər, amma evdəki texnoloji terrorun uşaqları daha çox hədələməsinin fərqində deyillər. Qoyun uşaqlar həyətdə yaşıdları ilə qaçsın, oynasın, lap yıxılıb əzilsin, nəinki evdə kompyuterdə qanlı, güllələranlı oyunlar oynasın. Uşaqlar ünsiyyətdən qaçır, hamısı da texnoloji asılılıq səbəbindən. Dərs dediyim sinifdə 23 nəfərdən 14-nün gözü zəif görür və dəhşətli orasıdır ki, mən valideynə deyənədək onların bundan xəbəri olmur".

### Uşaqları texnoloji asılılıqdan necə xilas edək?

Həm həkim, həm də pedaqoq müsahiblərimizin köməyi ilə valideynlərə uşaqları texnoloji asılılıqdan qurtarmaq üçün bir sıra təkliflər hazırladıq.

Televizora baxma, kompyuterdə oyun oynama zamanlarını qısaldın, bunu edərkən uşağa onlarla çox zaman keçirmə-



yin sağlamlığa zərərləri barədə danışın. İnternetə və uşağın çox baxdığı kanallara kod qoyun, beləcə sizdən xəbərsiz internetə girə və televiziya kanalına baxa bilməyəcək. Kompyuteri və televizoru uşaq otağına yox, qonaq otağına yerləşdirin. Unutmayın ki, texnologiya asılığı olan uşaqlar yaşlarına uyğun olmayan oyunlar oynaya, filmlər izləyə və beləcə aqressiv birinə çevrilə bilərlər.

Övladınızın gedib-gəldiyi qohumlar, yaşıdlarının ailələrinə də bu məsələdə xəbərdarlıq edin, uşaq siz qadağan etdiyiniz üçün onlarda istədiyi oyunu oynaya bilər. Uşağınızı onlayn mühitin maraqlı olduğu qədər təhlükəli olması, real dostluqların daha uzunömürlü olması barədə məlumatlandırın.

Uşaqların kompyuterdə oyun oynamaq üçün xüsusi vaxt təyin edin, bu zaman özünüz də onun seçdiyi oyunlara nəzarət edin, mümkünsə oyunları birlikdə oynayın. Onu virtual oyunlardan yayındırmaq üçün real oyunlar düşünün, evdəkilərlə birlikdə yeni və maraqlı əyləncələr tapın. Birlikdə rəqs etmək, uşaq oyunları oynamaq, sevdiyi nağılı səhnələşdirmək kimi maraqlı məşğuliyyətlərlə başını qatın.

Uşaqlarla qohumlara baş çəkin, qohumluq əlaqələrinin nə qədər vacib olmasını başa salın, qonaq gedərkən mümkün qədər telefon və planşetlərinizi evdə qoyun. Uşaqlara evdə sizə kömək etməsi üçün şərait yaradın, ona iş tapşırın. Məsələn, öz otağını səliqəyə salmasını, bezlə əşyaların tozunu almasını xahiş edə bilərsiniz.

Texnoloji yenilikləri həyatımızdan tamamilə çıxara bilmərik, bir çoxumuzun işi birbaşa onunla bağlıdır. Amma ondan asılılığı minimuma endirməklə həm özümüzə, həm də ailəmizə daha çox vaxt ayıra bilərik.

*Lalə Mehralı*

---



MƏTANƏT

# 3 günə 3 tələbə

***Dünyada uşaq böyütməkdən, tərbiyə etməkdən, onu bir məqama gətirib çıxarmaqdan çətin iş yoxdur. Belə isə 2024-cü ilin ilk günlərində bir-birinin ardınca dünyasını dəyişən 3 gəncin vaxtsız bitən ömrü adamı kədərləndirməyə bilmir. Çünki həmin gənclərdən hər birimizin evində var. Onların evlərimizi bəzəyən gülüşü, bizimlə bölüşdükləri arzuları, gələcəyə qurduqları planları, bir sözlə, dünya qədər istəkləri var. Onlar bütün bunları tək yaşamırlar. Ana olaraq biz də onlarla birgə yaşayırıq bu pillələrin hər birini.***

Bu gün bir istəkləri reallaşanda bəlkə də onların özündən çox sevinirik. Sabah seviləndə, sevəndə onlarla birlikdə biz də sanki keçmişə dönür və yaşadıqlarımızı yenidən yaşamağa başlayırıq. Bir kədərləri, bir qüssələri olanda onlarla birlikdə ağlayır, kədərlənirik. Eyni zamanda, onlarla birlikdə gülürük, şənlənirik.

Dırnaqlarına bir kiçik daşın dəyməməsi üçün ürəyimizi qabağa veririk. Ta ki onların canı sağ olsun, üzləri gülsün, həyatı sevinclə, xoşbəxt yaşaya bilsinlər.

Bütün bunların fonunda 3 gündə 3 övlad itirən valideynlərin nələr yaşadığını təsəvvür etmək o qədər asandır ki... İki tələbə oğlanın dəm qazından boğularaq həyatını itirməsi, 1 tələbə qızın, hələlik, bilinməyən səbəbdən vəfat etməsi üç ailənin faciəsi deməkdir. Üç gəncin gələcəyinin məhv olması deməkdir. 3 ananın gözünün yaşının ta dünyanı tərk edənədək qurumaması deməkdir.

Biz övladlarımızı nə qədər sevsək də, lakin bəzən onların təhlükəsizliyinin də böyük sevgi ilə təmin olunmasının əhəmiyyətini dərk etmirik. Bu səbəbdən də budur, dəm qazı övladlarımızın qəniminə çevrilir, onların ömrünü yarımçıq qoyur.

Nihad və Sənan öz evlərindəmi, yoxsa kirayə yaşadıqları evdəmi dəm qazından boğulublar, maraqlıdır. Əslində, harada həyatlarının nöqtəsi qoyulub, dəxli yoxdur. Fakt budur ki, artıq iki gəncimiz həyatda yoxdur. İki arzu, iki dilək, iki gələcək torpağa gömüldü. Bəs onların ölümünə səbəb olanlar necə, bu vicdan əzabı ilə necə yaşayacaqlar? İstər öz evləri, istər kirayə yaşadıqları evlər olsun, onların məsuliyyəti ev sahiblərinin üzərindədir. Hələ bu ev sahibi ata-ana olarsa...

Bir valideyn evində təhlükəli sistem qurub bütün ailənin həyatını necə təhlükə qarşısına qoya bilər? Axı o düşünməlidir ki, evdə oldu-olmadı, bu təhlükə hər an var. Evlərini kirayə verib pul qazananlar necə, nə üçün təhlükəsiz bir sistem qurmaq fikrində deyillər. Bu iki gəncin harada vəfat etməsi məlum olmasa da, lakin çoxsaylı ölümlər, yaranan təhlükələr əsasən ucuz qiymətə verilən kirayə evlərdə baş verir.

İstər öz evlərimiz, istərsə də kirayə evlər olsun, biz övladımızın harada, hansı şəraitdə yaşamasına cavabdehik. "Əşi, heç nə olmaz" deyib,- keçə bilmərik. Baxmayaraq ki, hər payız-qış aylarında təhlükəsizliklə bağlı aid qurumlar xəbərdarlıq edir, lakin hər il eyni hadisələrlə üzüzə qalırıq. Deməli, bizdə nə qədər övlad sevgisi varsa, bir o qədər də məsuliyyətsizlik var.

Belə isə Nihadı, Sənanı və Aytəni bir daha geri qaytara bilərikmi? Əslə. Hər üç gəncin vəfatı sözsüz, valideyn məsuliyyətsizliyinin "töhfəsidir". Onların yarımçıq qalmış arzuları, həyatları naminə heç olmasa, digər övladlarımızı qoruyaq!

# Bir ovuc erməni maraqlarının əsiri olan Fransa

## Makron hakimiyyətinin uğursuz siyasəti bu ölkəyə nəticə etibarilə ancaq düşmən qazandırır



***Fransa dünyada kifayət qədər önəmli dövlətdir. Əlbəttə, supergüclər sırasında deyil. Lakin ikinci cərgədədir. Keçmiş imperiyadır, yəni, onun müstəmləkələri, nüvə silahı var, NATO-nun və Avropa İttifaqının (Aİ) qurucu ölkələrindəndir, BMT Təhlükəsizlik Şurasının (TŞ) daimi üzvüdür, bu qurumda veto hüququna malikdir. Yəni bu ölkənin böyük resursları mövcuddur. Bura qədər yaxşı gəlmişdik. Baxın, burada Kərəmi ağlamaq tutdu...***

ATƏT-in keçmiş Minsk qrupunun həmsədr dövləti regiona nüfuz etməyə çalışan, başqa sözlə, regionda özünün maraqlarını təmin etmək istəyində olan Fransa sonradan daha fərqli "imkanlar" axtarışına çıxıb. Günümüzün reallığında ortaya çıxan bəzi faktlar sübut edir ki, Parisin yürütdüyü xarici siyasət kursu heç də bəyan etdiyi "yüksək Avropa dəyərlərinə", "demokratik prinsiplərə" söykənmir - tam əksinə, Fransanın Cənubi Qafqaz da daxil olmaqla bir sıra regionlara münasibəti neokolonializmə, qeyri-adekvat variantlara əsaslanır.

### Rəsmi Parisin başlatdığı "soyuq müharibə"dəki məğlubiyyəti...

Erməni kartı üzərindən Azərbaycana təzyiq göstərməyə, separatizmi dəstəkləməkdən Ermənistanı silahlandırmağa qədər qeyri-adekvat davranışlar nümayiş etdirməyə çalışan Fransa özünün əsl siması(zlığı)nı ortaya qoyur. Cənubi Qafqazda yürütdüyü neokoloneolizm siyasətinin fərqli bir mənzərəsini formalaşdırmağa çalışan Fransanın bütün kartları açılıb - Parisin dünya ictimaiyyəti qarşısında rəzilliklərinin sayı-hesabı yoxdur. Xüsusilə Azərbaycana qarşı qurduğu oyunlar ard-arda iflasa uğrayır. Cəmisi 2 illik intervala nəzər saldıqda maraqlı bir situasiya ilə qarşılaşırıq: Fransanın patronajlığı altında olan Frankofoniya təşkilatında Azərbaycana məğlubiyyət, BMT TŞ-də ard-arda düşdüyü rəzil durumlar - Laçın sərhəd-buraxılış məntəqəsi ilə bağlı boşa çıxan bütün cəbalarından tutmuş separatçı xuntanın müdafiəsinə qədər keçdiyi "bütün yollarda" acı məğlubiyyətə düçar olması, Prezident Emmanuel Makronun Qarabağla bağlı cəfəng fikirlərinin heç bir işə yaramaması, Aİ-nin "müşahidə qrupu" adı altında özünün kəşfiyyat şəbəkəsini Ermənistana yerləşdirməsinin effektivsizliyi, bu ölkənin Milli Assambleyasının, Senatının Azərbaycana qarşı qəbul etdiyi qərəzli "qətnamə"lərin kağız parçası kimi əhəmiyyət daşımaması və s.





### Cəhdlərinin nəticə verməməsi onu yeni təşəbbüslərdən antibəşəri addımlardan çəkindirmədi, əksinə...

Azərbaycanın hüquq-mühafizə, təhlükəsizlik orqanlarının uğurlu fəaliyyəti və peşəkarlığı ilə Fransanın casus şəbəkəsinin ifşası həyata keçirildi.

Xəbər verildiyi kimi, dekabrın 26-da Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Nazirliyin Mətbuat xidmətinin məlumatına görə, Fransa səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunduğu Fransa səfirinin diqqətinə çatdırılıb, həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb olunub və XİN-in müvafiq notası Fransa səfirinə təqdim edilib.





Azərbaycanın bu haqlı davranışının ardından isə Fransa özünü dünya birliyinin gözü qarşısında əməlli-başlı rüsvay edib - Azərbaycanın Parisdəki səfirliyinin iki əməkdaşı Bakının fransalı diplomatlara qarşı oxşar hərəkətinə cavab olaraq "persona-non-grata" (arzuolunmaz şəxs) elan edilib.

Artıq savaş iki ölkə arasında humanitar sahəni də əhatə etməkdədir. İsmayıllı Rayon İcra Hakimiyyəti maraqlı bəyanat yayıb. Bəyanatda deyilir ki, 2015-ci ilin may ayında İsmayıllı və Fransanın Evian-Le Ba şəhərləri arasında Dostluq və Əməkdaslıq Xartiyası imzalanıb. Məqsəd iki şəhər arasında dostluq əlaqələrini inkişaf etdirmək, mədəniyyət, turizm kimi sahələrdə yaxından əməkdaşlıq etməkdən ibarət idi. Bu istiqamətdə praktiki addımlar atılmış, əməkdaşlığın davamı kimi 2017-ci ildə Evian şəhərində "Azərbaycan bağı"nın və parkda "Dostluq" bulağının, eləcə də görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın heykəlinin açılış mərasimi keçirilib. Eyni zamanda, İsmayıllı şəhər mərkəzi parkında "Azərbaycan-Fransa dostluq parkı" lövhəsi yerləşdirilib. Təəssüf ki, "Qardaşlaşmış şəhərlər" humanist ideyasını Fransa tərəfi siyasiləşdirərək, Vətən müharibəsindən sonra Ermənistana dəstək əlaməti kimi şəhərlərarası təmasları dayandırıb.

Bəyanatda qeyd olunur ki, 2023-cü il dekabrın 18-də Evian Şəhər Bələdiyyə Şurasının iclasında ölkəmizə qarşı əsassız ittihamlar səsləndirilib, Ermənistana dəstək ifadə olunub. Həmçinin şəhər meri "Azərbaycan bağı" qeyd edilən yazıların silindiyini elan edib. Buna cavab olaraq Fransanın ölkəmizə qarşı bütün platformalarda apardığı anti-Azərbaycan siyasətinə və Evian Şəhər Bələdiyyə Şurasının "Azərbaycan bağı" qeyd edilən yazıların silinməsi ilə bağlı qərarına etiraz əlaməti olaraq, İsmayıllı şəhəri və Evian-Le Ba şəhəri arasında imzalanmış Dostluq və Əməkdaşlıq Xartiyası qüvvədən düşmüş hesab edilib. Bundan sonra İsmayıllı şəhər mərkəzi parkı məşhur Azərbaycan şairi Xurşid-banu Natəvanın adını daşıyacaq.

### Ən maraqlısı budur ki...

Rəsmi Paris Bakı ilə bilərəkdən gərginləşdirməyə çalışdığı münasibətlərin nə ilə nəticələnə biləcəyini, onun Azərbaycanda, bütövlükdə Cənubi Qafqazda nələrdən məhrum olacağını hesablayıbmı? Hansı tərəfin daha çox itirəcəyini nəzərə alıbmı?

Fransa hazırda demək olar ki, hər bir cəhətdən Azərbaycanın qarşısında məyusluq hissi yaşayır. Fransanın siyasi yolla Azərbaycana qarşı istər BMT səviyyəsində, istərsə də digər beynəlxalq qurumlar səviyyəsində yanlış iddialarının hər biri cavabsız və nəticəsiz qalıb. Ermənistan da bütün bunlardan nəticə çıxarmalıdır. Çünki onun havadarı olan Fransanın beynəlxalq hüquqazidd əməllərinin ifşa olunması gələcək üçün yaxşı heç nə vəd etmir.

***Yaqut Ağaşahqızı***

# Saç tökülməsinin səbəbləri NƏLƏRDİR?

***Hər saç telinin müəyyən yaşama müddəti vardır. Saç teli ortalama 4-6 il yaşayır, sonra istirahət edir və daha sonra tökülür. SİA xəbər verir ki, baş dərimizdə təxminən 100 min ədəd saç teli vardır. Belə ki, adətən, saç tökülməsi 2 ay davam edir və dayanır. Əvvəlcə bu vəziYyətin nə qədər ciddi olub-olmadığını dəqiqləşdirməliyik. Gün ərzində 70-120 saç teli tökülürsə, bu zaman bu hal problem sayılmır, çünki hər bir insanda gün ərzində maksimum 120 saç teli tökülüb yerinə yenisi inkişaf edir. Adətən, saç tökülməsi 2 ay davam edir və dayanır. Əgər bu müddət uzanırsa başqa problemlərin xəbərçisi ola bilər. Saç tökülməsi bir çox səbəbdən ola bilər.***



## Pis qidalanma

Bildiyimiz kimi, saç canlı bir orqandır və onun da qidalanması lazımdır. Tarazlı və düzgün qidalanmamaq, uzun müddətli ac qalmaq, tək növ qidalanma və karbohidratla zəngin qidalanma saçlara təsir edərək onların tökülməsinə səbəb ola bilər. Müalicəsi qidalanmanı düzəldərək mümkündür.

## Hormonal problemlər

Əgər şəxsdə hormonal problemlər varsa, aybaşı gecikmələri, ya da düzənsizliyi, tüklənmənin artması, həddindən çox sızanaq, çəki almada sürətlənmə kimi əlamətlər varsa bunlara saç tökülməsi də qoşulubsa, bu zaman hormonal saç tökülməsindən söhbət gedir.



## Dəri problemləri

Dəri və digər daxili xəstəliklər də saç tökülməsinə səbəb ola bilər. Dəri səbəbindən rast gəlinən saç tökülmələrinin əsas səbəbi, adətən, dəridə olan xəstəliklər səbəbindən saç dərisinin zədələnməsidir. Ekzema, sızanaq, liken xəstəliyi, həddindən artıq yağlı dəri, göbələk kimi xəstəliklər də saç tökülməsini artıran səbəblərdir. Bu tökülmələrin müalicəsi altda yatan səbəblərin müalicəsi ilə mümkündür.





## Genetik faktorlar

Saç tökülməsi kişilərdə və qadınlarda fərqli səbəblərdən meydana gələ bilər. Kişilərdə rast gəlinən saç tökülməsi adətən genetik olan və 50%-dən çoxunda kişi hormonlarına həssas olan saç tökülməsidir. Erkən yaşda başlayan müalicə ilə saçların tam tökülmə müddəti uzadıla bilər. Bu tip saç tökülmələrinə qadınlarda da rast gəlinə bilər. Ailədə genetik saç tökülməsi olan qadınlarda xüsusi ilə gənclərdə qidalanma, hormonal disbalans və stress səbəbindən saç tökülmələrinə rast gəlinə bilər.

Bütün bunlardan başqa, saç tökülməsinin iki xüsusi səbəbi var. Biri doğuşdan 2-3 ay sonra başlayan doğuşdan sonrakı tökülmələrdir. Hamiləlik dövründə tökülməsi lazım olan, ancaq tökülməyən saçların ani tökülməsindən qaynaqlanır. Bir mütəxəssisin nəzarəti altında ediləcək əlavələr bu mövzuda narahatlığın aradan qaldırılmasına kömək edir. Digəri kemoterapiya alan xəstələrdə saç tökülməsidir. Son illərdə daha müasir dərmanların istifadəsi ilə bu tökülmələr daha az yayqındır, lakin müalicə başa çatdıqda öz-özünə sağalmağa meylli bir vəziyyətdir.

## Kosmetik təsirlər

Artan kosmetik vərdişlər mexaniki, kimyəvi və fiziki saç tökülməsinə səbəb olan digər amillərdir. Başqa sözlə, saçları möhkəm bağlamaq, daxili başlıqlar, həddindən artıq istiyə məruz qalan qurutma prosesləri, saçları yüngülləşdirmək üçün istifadə olunan boyalar, işıqlandırıcılar, düzləşdirmə üsulları saçları kənardan zədələyərək saç tökülməsinə səbəb olur. Bu vəziyyətdə yeganə müalicə saçların bu tətbiqlərə məruz qalmamasını təmin etməkdir. Saç üçün lazımi möhkəmləndirmə və qulluq proseslərinin tətbiqi, arzuolunan görünüşün yenidən əldə edilməsini təmin edir.

## Stres və depressiya

Həddindən artıq stres hər hansı xəstəlikdə olduğu kimi saç tökülməsinin başqa bir səbəbidir. Depressiya, narahatlıq, psixoz və müalicəsində istifadə edilən dərmanlar saçları təsir edə və tökülməsinə səbəb ola bilər.

Saç, gündəlik həyatda qısa müddətdə bir çox faktordan təsirlənə bilən canlı bir orqandır. Şəxsin həyatında bir şey səhv olarsa, bu məlumatlar işığında, insan əvvəlcə özünü ölçməli və sonra lazım gələrsə bir dermatoloqdan kömək istəməlidir. Çünki bu mövzuda ətrafdan gələn yanlış istiqamətlər və qulaqdandolma məlumatları xəstələrin vaxt itirməsinə səbəb ola bilər. Əsas səbəb varsa, diaqnoz və müalicə gecikdirilə bilər. Bundan əlavə, saç tökülməsinin və saçların uzanmasının qarşısını almaq düşüncəsi ilə şüursuz şəkildə tətbiq olunan maskalar və qarışıqlar saçlara daha çox zərər verərək geri dönməz zərər verə bilər.



## Saç tökülməsinin müalicəsi necədir?

İlk növbədə, dermatoloqun müayinəsi ilə saç tökülməsinə səbəb olan faktorlar müəyyən edilir və uyğun müalicə planlanır.

## Dərman müalicəsi

Saç tökülməsinin qarşısını alan və mövcud saçları qalınlaşdıran FDA tərəfindən təsdiqlənmiş dərmanlar həkim nəzarəti altında istifadə edilə bilər. Yeni başlayan yüngül və orta dərəcədə saç tökülməsinin qarşısını almaq üçün saçların inceldiyi və zəiflədiyi bölgələrdə dərmanlar faydalı ola bilər. Dərmanların təsiri - saç sayını artırmaq, seyrəlmiş saçları qalınlaşdırmaq və daha da tökülməsinin qarşısını almaq şəklindədir.

## Saç mezoterapiyası

Saç mezoterapiyası saç tökülməsində olduqca tez-tez istifadə edilən təsirli bir müalicə üsuludur. Saç mezoterapiyası saçın sağlam böyüməsi və inkişafı üçün zəruri olan vitaminlərin, antioksidantların, mineralların və qan dövranını tənzimləyən maddələrin mikro iynələrlə birbaşa baş dərisinə yeridilməsi prosesini əhatə edir.

Saç mezoterapiyası hər il müalicə vasitəsi kimi tətbiq oluna bilər. Bəzən aylıq dəstək gücləndirmə şəklində davam etdirilə bilər. Bu sayədə saç tökülməsi dayanır və daha güclü yeni saçlar əmələ gəlir. Saç mezoterapiyasının ilk seansından etibarən fərq hiss oluna bilər və saçlar əvvəlki canlı və parlaq görünüşünü bərpa edə bilir.

## PRP saç müalicəsi

Saç tökülməsi problemi olan insanların ən yaxşı nəticə aldığı üsul olan PRP prosedurу zamanı xəstənin öz qanı alınaraq sentrifuqadan keçirildikdən sonra trombositlərlə zənginləşdirilmiş plazma saç dərisinə yeridilir.

## Saç əkimi

Saç əkimi xüsusilə kişi tipi saç tökülməsi olan insanlara tətbiq oluna bilər. Saç əkilməsi bu xəstələr üçün ən qəti və qalıcı müalicədir.

***Sevilin Abbasova***

# Dağıdıcı müxalifət yenidən xaricdəki antimilli ünsürlərlə bir arada



7 fevral 2024-cü il də keçiriləcək növbədənkənar prezident seçkilərinə hazırlıq çərçivəsində aparılan və görülən fundamental işlər bir daha Azərbaycanın azad və demokratik seçkilərin keçirilməsinə sadiq olduğunu təsdiqləyir. Ümumxalq fəallıq fonunda bəzi qüvvələrin, xüsusilə də, yerli və xarici pozucu dairələrin qısqanclıq və sifarişlər zəminində dezinformasiyalar yaymaları, şər və böhtanlarla çıxış etmələri məkrli planların işə salınmasından xəbər verir. Məlum olur ki, Azərbaycanın möhtəşəm sosial, iqtisadi, hərbi, diplomatik uğurları və bu uğurlar fonunda xalqın yüksək fəallıqla seçkilərə getməsi yerli və xarici məkrli dairələri ciddi narahat edir. Bu baxımdan da, mərkəzləşmiş şəbəkə formasında Azərbaycana qarşı antitəbliğat kampaniyası təşkil edirlər. Bunu edənlər isə, bu gün sosial şəbəkələrdə "xalq", "millət" deyə bağırıb, özlərinə dividentlər qazanmağa cəhd edən dağıdıcı müxalifət partiya "liderlər" və xaricdəki ünsürlərdir ki, sözügedən vasitələrlə guya öz "mübarizələrində" üstünlük qazandıqlarını düşünürlər. Lakin bütün hallarda xalqın nifrət və qəzəbinə düçar olurlar.

## Avropada oturub Azərbaycana qarşı böhtanlar səsləndirənlərin satqın olduqları sübut olunub

Azərbaycanda yaşayıb müxtəlif səbəblərdən xaricə qaçan bir qrup üzüdönük satqın var ki, onlar anlaqsız vəziyyətdə oduqlarından dövlətimizə və xalqımıza qarşı sifarişli antitəbliğat kampaniyası aparırlar. Xarici ölkələrdə oturub, Azərbaycan haqqında sosial şəbəkə vasitələri ilə hər gün canlı yayımlar etməklə hədyanlar səsləndirən Tural Sadıqlı, Məhəmməd Mirzəli, Orduxan Temirxan və digərləri günün birində it kimi sığındıqları ölkələrdən qovulacaqlar. Çünki kifayər qədər xaricdə oturub, Azərbaycan barədə sifarişli təhqirlər yağdıran şəxslər olmuşdur ki, istifadə olunmaq limitləri bitdikdən sonra lazımsız əşya kimi Azərbaycana deportasiya olundular. Dövlətimiz isə xeyirxahlıq və humanistlik göstərərək onları işlə təmin etdi, yaşamaq üçün yer ayırdı. Təbii ki, digərlərini də eyni aqibət gözləyir. Azərbaycan cəmiyyətinə artıq hər şey aydındır ki, Avropada oturub Azərbaycan dövlətinə, xalqına qarşı şər və böhtanlar səsləndirənlər yalnız xarici xüsusi xidmət orqanları qarşısında deyil, eləcə də erməni lobbisinin pulları qarşılığında üzərilərinə öhdəlik götürüb, öz dövlətlərinə qarşı çirkin kampaniya aparırlar. Onlardan biri də Orduxan Teymurxandır ki, Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal edilərkən doğulduğu Cəbrayılı müdafiə etməkdənsə, Avropaya qaçdı. Sonradan məlum oldu ki, bu məxluq Rusiya agenturasının əməkdaşıdır. Hələ Rusiyada hərbi xidmətdə olarkən Rusiya KQB-si tərəfindən əməkdaşlığa cəlb olunub.

## Xaricdəki söyüş qrup üzvləri həm də qorxaq və cəsarətsizdirlər

Sosial şəbəkələrdə yayılan informasiyalardan aydın olur ki, bəzən Avropadakı söyüş qrup üzvləri ayrılan pulu bölə bilmədiklərindən bir-birini aşağılayıb, təhqir edirlər. Məhəmməd Mirzəli Tural Sadıqlıdan ala bilmədiyi 300 avroya görə onu ən ağır söyüşlərlə təhqir edirdi. Bu azmış kimi Məhəmməd Mirzəli Tural Sadıqlı haqqında təhqir və ifşaedici videolar yayırdı. Bu gün də tərəflər arasında bir-birini təhqiredici kampaniya davam edir. Bu cür yararsız məxluqların bəzən "millət", "xalq" deyə pafoslu açıqlamalarla çıxış etmələri, canlı yayımlar qurmaları gülüş doğurur, məsxərə obyekti yaradır. Ən böyük rüsvayçı hallardan biri ondan ibarətdir ki, iki eşşəyin arpasını bölə bilməyən T.Sadıqlı prezidentliyə namizəd olmaq iddiasına düşmüşdür. Görünür, təlimatları ilə fəaliyyətini qurduğu AXCP sədri Əli Kərimlidən bir səs çıxmadığını gördüyündən qabağa çıxıb, namizəd olmaq arzusuna düşmüşdür. Bununla da həm də daha çox qrant almaq istəyində olmuşdur. Lakin MSK qanunvericiliyin tələbinə əsaslanmaqla ona Azərbaycana gəlib, özü şəxsən namizədliyini irəli sürməyi məsləhət bilmişdir. Təbii ki, qorxaq və cəsarətsiz olan T.Sadıqlı məsləhəti nəzərə almaq gücünə malik deyil. Onun ki, yalnız xaricdə rahat, təhlükəsiz yerdə oturub, xalqını sevən, millətinə bağlı olan insanları təhqir etməkdir, dövlətə qarşı ittihamlar irəli sürməkdir, xalqın heysiyyatına toxunan ifadələr səsləndirməkdir.

## Əli Kərimli və Cəmil Həsənli təxribatların mərkəzində olmağa çalışırlar

Uzun illərdir ki, AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Müsavat başqanı Arif Hacılı və digərləri sosial şəbəkələr vasitəsi ilə bəyan edirlər ki, guya cəmiyyətdə nüfuzları var, hörmət-izzətləri də göz qamaşdırır. Lakin növbədənkənar prezident seçkilərini boykot etmək kimi absurd iddia ilə çıxış etmələri göstərdi ki, danışdıqları və yazdıqları, sadəcə, sabun köpüyüdür. Əgər özlərinə arxayın olsa idilər, söz yox ki, seçkilərdə iştirak edərdilər. Əmin deyillər və anlayırlar ki, onlar üçün seçki məğlubiyyəti qaçılmazdır. Bu baxımdan, öncədən üzləşəcəkləri seçki məğlubiyyətindən qaçmaq üçün boykot kimi absurd iddia ilə çıxış edirlər. Hətta utanıb çəkinmədən boykot qərarlarına haqq qazandırmağa da çalışırlar. Əli Kərimlinin trol dəstəsinin fəallarından olan Fuad Qəhrəmanlı təmsil olunduğu düşərgə təmsilçilərinin AXCP-nin 7 fevral prezident seçkisi ilə bağlı boykot qərarını tənqid edənləri qınayıb. O, sosial şəbəkə hesabında yazdığı statusunda əqidə dostlarını və məsləkdaşlarını siyasi savadsızlıqda ittiham edib: "Seçkilərin boykot edilməsi qərarı verəndə bunun səhv olduğunu deyib partiyaya qarşı əks təbliğat kampaniyasına başlayanlar oldu. Hamının tanıdığı bu adamlar bir ağızdan "seçkiyə qatılıb mütləq nəsə etmək lazımdır" deyirdilər. Biz isə növbəti dəfə onlara qatığın ağ olduğunu sübut etməli olurduq və buna baxmayaraq qarşı tərəf də hazırkı şərtlərdə seçkidə iştirak yolu ilə " nəsə etməyin " mümkün olmadığı həqiqəti ilə heç cür razılaşmaq istəmirdi. İdda olunurdu ki, hətta bu şərtlərdə belə seçkiyə gedib nəsə etmək olar, əgər edilmirsə demək ki, müxalifət ya səhv edir, ya da ki, hansısa müəmmalı səbəbdən özü bunu istəmir".

F.Qəhrəmanlı anlamır ki, seçkilərdə iştirak etmək üçün dövlət qeydiyyatına alınmış bütün siyasi partiyalara bərabər imkan yaradılıb. Potensialı və elektoratı olan bütün siyasi qüvvələr üçün seçkilər bir imkandır. Bu mənada istənilən narazılıq yalnız qərəzli mövqeyin və məhdud potensialın təcəssümü kimi dəyərləndirilməlidir. Əslində, dağıdıcı məxluqların seçkilərlə bağlı qərəzli fikirləri, sadəcə, ucuz demaqogiyadır, həm də siyasi acizliyin və məğlubiyyətin etirafıdır. Heç bir elektoratı olmayan və ötən illər ərzində bütün etibar limitini itirmiş dağıdıcı müxalifət öz zəifliyini etiraf etmək əvəzinə növbəti dəfə təxribat və cəmiyyətdə ixtilaf yaratmaq yolunu seçiblər. Lakin istəkləri və arzuları baş tutmayacaq. Çünki xalq fikrində qərarlıdır. Bu baxımdan, 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar Prezident seçkilərini Zəfər seçkiləri adlandırmaq olar.

***İLHAM ƏLİYEV***

**ŞƏRH + AKTUAL**

# Zəngəzur dəhlizi gündəmdə: İrəvan geri çəkildi!

## Paşinyan məhz bu gerçəkliyi son anda dərk edib




Son zamanların ən çox müzakirə edilən və əhəmiyyətinin əsasını təşkil edən mövzulardan biri də, məhz Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Xüsusilə, İrəvanın müxtəlif bəhanələrlə dəhlizin açılmasına qarşı əngəllər yaratmaq cəhdi belə qənaətə gəlməyə zəmin yaradırdı ki, dəhliz Ermənistandan yan keçməklə qonşu İranın ərazisindən reallaşdırılacaq. Lakin bu günlərdə Ermənistanın baş naziri Paşinyanın Zəngəzur dəhlizi ilə bağlı, açığını desək, gözlənilməz və müsbət mesajlar səsləndirməsi sözügedən mövzunun daha da aktuallığını artırıb.

### Əbdülqadir Uraloğlu: "Dəhlizin Ermənistan hissəsinin uzunluğu 43 km-ə yaxındır"



Bu arada, Türkiyənin nəqliyyat və infrastruktur naziri Əbdülqadir Uraloğlu Türkiyə telekanalına müsahibəsində bir sıra məqamlara aydınlıq gətirərək bildirib ki, ilk dəfə belə bir təşəbbüs irəli sürüləndə rəsmi İrəvan tərəfi bu layihənin Ermənistana faydasından danışsa da, mənfi reaksiya verib.




Bu baxımdan, türkiyəli nazirin sözlərindən həm də belə nəticə çıxarmaq olar ki, Ermənistan son ana qədər bəlli havadarlarına arxalanaraq istədiyinə nail olacağını düşünürdü. Amma göründüyü kimi, İrəvan bu dəfə də geriyə çəkilməli oldu. Daha dəqiq desək, Cənubi Qafqaz regionunun real oyunçularının olduğu yerdə hər hansı digər oyunçular bu məsələyə qarışmağa cürət etmədilər. Hətta İran faktoru da artıq arxa plana keçib. Bunu Əbdülqadir Uraloğlunun növbəti fikirlərindən də aydın görmək olar.

Beləliklə, nazirin sözlərinə görə, Türkiyə dəhliz layihəsini 2029-cu ilə qədər həyata keçirməyi planlaşdırır. "Zəngəzur dəhlizinin Bakıdan Horadizə qədər olan Azərbaycan hissəsi tamamlanmaq üzrədir. Türkiyə hissəsinin uzunluğu 224 km-dir. Ümumilikdə bu dəhlizin yaradılması prosesi 5 il çəkəcək. Düşünürəm ki, 2028-ci ildə biz işləri tamamilə başa çatdıracağıq", - deyə Uraloğlu bildirib.

### "Türkiyə türk dünyası və Mərkəzi Asiya ölkələrinə birbaşa və asan çıxış əldə edəcək"

Ankara İranın da öz ərazisi vasitəsilə Türkiyə ilə Azərbaycanı birləşdirən bu əlaqənin bir hissəsinə çevrilməsini istisna etmir. O, həmçinin vurğulayıb ki, dəhlizin Ermənistan hissəsinin uzunluğu 43 km-ə yaxındır: "Onlar (yəni Ermənistan - red.) dəhlizin tam başa çatmış sayılması üçün planlaşdırma və tenderlər aparmalı olacaqlar. Beləliklə, Türkiyə türk dünyası və Mərkəzi Asiya ölkələrinə birbaşa və asan çıxış əldə edəcək".

İran faktoruna gəldikdə isə Əbdülqadir Uraloğlu qeyd edib ki, rəsmi Tehran da, öz növbəsində, Ermənistandan yan keçməklə Azərbaycanı Türkiyə ilə birləşdirəcək yolun tikintisi təşəbbüsü ilə çıxış edib. Ancaq buna baxmayaraq, Uraloğlu paralel olaraq Zəngəzur dəhlizi layihəsinin reallaşacağını bir daha vurğulayaraq bildirib ki, Ankara İranın da öz ərazisi vasitəsilə Türkiyə ilə Azərbaycanı birləşdirən bu əlaqənin bir hissəsinə çevrilməsini istisna etmir və bu layihənin vaxtında həyata keçiriləcəyini gözləyir.

### Paşinyanın layihə ilə bağlı fikrini dəyişməsi belə nəticəyə gəlməyə əsas yaradır ki...

Söz yox ki, Paşinyanın layihə ilə bağlı fikrini dəyişməsi belə nəticəyə gəlməyə əsas yaradır ki, artıq o da Ermənistanın iqtisadi cəhətdən son şansını əldən verilməsinin ölkəsini hansı acınacaqlı vəziyyətə sürükləyəcəyini tam dəqiqliyi ilə anlayıb. Xüsusilə, Rusiya ilə münasibətlərin son həddə gərgin olduğu bir vaxtda Moskvanın İrəvana daha ağır dərs verəcəyini, son iqtisadi dəstəklərin kəsiləcəyi fonunda bu, Ermənistanın baş nazirinin yeganə düzgün qərarı ola bilər. Yəni, Zəngəzur dəhlizinin açılması həm Ermənistanın, həm də regionun yeni və qlobal iqtisadi nəfəs almasını təmin edəcək. Əks halda Ermənistan son nəfəsini verə bilər. Paşinyan da məhz bu gerçəkliyi son anda dərk edib.

***Afət Tahirqızı***

# ABŞ niyə Azərbaycana qarşı saxta iddialarla hücumlarını gücləndirir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*















Dövlət Departamenti Azərbaycan Respublikasını "dini etiqad azadlığının ciddi şəkildə pozulmasına görə xüsusi olaraq monitorinq ediləcək" ölkələr siyahısına daxil edib. Qeyd olunur ki, rəsmi Vaşinqtonun bu qərarı ABŞ-ın Beynəlxalq Dini Azadlıq Komissiyasının "Qarabağda xristian ziyarətgahlarının qorunub saxlanılması" ilə bağlı narahatlığını ifadə etməsindən sonra verilib. Eyni zamanda, hesabatda prinsipcə dinlə heç bir əlaqəsi olmayan məqamlar var. Komissiya rəsmi Bakını guya 2022-2023-cü illərdə Laçın yolunu bağlamaqda ittiham edir, sentyabr ayında Azərbaycanda həyata keçirilən antiterror tədbirlərindən sonra ermənilərin Qarabağdan deportasiya edildiyini iddia edir və s.

ABŞ-ın Azərbaycana qarşı yeni hücumlarını Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov "Moskva-Baku" portalına şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Sergey Aleksandroviç, il təzəcə başlayıb və ABŞ-ın Azərbaycana qarşı təxribat xarakterli addımlarının davam etməsi göz qabağındadır...***

- ABŞ-ın guya "dini etiqad azadlığının və ya tolerantlığın ciddi şəkildə pozulması" ilə bağlı Azərbaycanla mübahisələri tamamilə saxtakarlıq və hiylədir, çünki Azərbaycan multikulturalizm siyasətinin həyata keçirilməsində, rəsmi dövlət siyasəti, dini etiqad azadlığının təmin edilməsi, bütün etnik qrupların nümayəndələrinin öz adət-ənənələri və mədəniyyətləri çərçivəsində yaşamaları üçün imkanlarına görə başqa ölkələrə nümunə ola bilər.

ABŞ-ın Beynəlxalq Dini Etiqad Azadlığı Komissiyasının hesabatı əsasında Dövlət Departamentinin Azərbaycanı bu sahədə problemli ölkələr siyahısına daxil etməsi hər şey ağ saplarla tikilməsidir. Bunlar əsasən Ermənistan-Azərbaycan nizamlanmasi və Qarabağ ətrafında baş verən proseslərə aiddir. Bu, məsələn, Azərbaycanın Laçın yolunu "bağlaması" iddiasıdır. Ümumiyyətlə, Azərbaycan Respublikasında guya bəzi azadlıqların pozulması var.

Başqa sözlə, ABŞ vəziyyəti saxtalaşdırır. Şikayətlər üçün heç bir əsas yoxdur. ABŞ Azərbaycanın erməni abidələrinin qorunub saxlanması sahəsində müsbət siyasətini inkar etməyə və onu guya xristian mədəniyyətini məhv etməkdə ittiham etməyə çalışır. Mədəniyyətlərin toqquşmasına dair bir tamaşa da var. ABŞ əsasən erməni lobbisinin və anti-İslam strukturlarının təhriki ilə Azərbaycanı daim və yalandan ittiham edib.

Xatırlayırıq ki, Bakı ilə Vaşinqton arasında diplomatik münaqişə ötən ilin sonunda ABŞ dövlət katibinin köməkçisi Ceyms O`Brayenin Azərbaycanın Qarabağda antiterror tədbirləri ilə bağlı qalmaqallı bəyanatlarından sonra alovlanıb. Yəni bu, Ermənistanın müdafiəsi üçün açıq məsaj idi. Və hətta həmin O`Brayen Antoni Blinkenin xahişi ilə İlham Əliyev tərəfindən qəbul edildikdən sonra da, görünür, münasibətləri o dərəcədə həll etmək mümkün olmayıb ki, Bakı bu münasibətlərin gələcəyini görsün. Azərbaycan liderinin köməkçisi Hikmət Hacıyev bildirib ki, Azərbaycanla ABŞ arasında bu münaqişə təkcə burada və indi yaranmış vəziyyət deyil. O, 1992-ci ildən Azərbaycan Respublikasına münasibətdə ABŞ tərəfindən qüvvədə olan 907-ci düzəlişi xatırladıb və bildirib ki, ABŞ onilliklər boyu ədalətsiz olduğuna görə Azərbaycana münasibətini kökündən dəyişməlidir.

Gördüyümüz kimi, son vaxtlar daha tez-tez baş verən Azərbaycana hücumlar ABŞ-a potensial sanksiyaların tətbiqi üçün əsas kimi lazımdır. ABŞ-ın Bakıya təzyiqini artıran bir neçə hal üst-üstə düşdü. Birincisi, ABŞ-da güclü erməni lobbisinin, ermənipərəst sistemin olmasıdır. Bu lobbi dövlət orqanlarında fəaliyyət göstərir, ABŞ-da çoxlu sayda erməni iş adamı yaşayır, erməni lobbisi ilə əlaqəli bir çox KİV var. Birləşmiş Ştatlardakı bu ermənipərəst sistem nə Azərbaycanın güclənməsi sayəsində Cənubi Qafqazda baş verən geosiyasi dəyişiklikləri, nə də Azərbaycanın bütün istiqamətlərdə çox güclənməsini və təkcə regionda deyil, həm də dünyada rolunun artmasını xoş qəbul edə bilməz. Qarabağ münaqişəsinin bitməsi isə heç xoşlarına gələ bilməz. Və son nəticədə Azərbaycanla Ermənistan arasında yaxınlaşan sülh onların da xoşuna gələ bilməz.



İkinci vəziyyət Rusiya ilə Qərb arasında müharibədir ki, bu müharibədə ABŞ başqa şeylərlə yanaşı, Rusiya Federasiyasının müttəfiqlərindən də ona qarşı istifadə etməyə çalışır. Cənubi Qafqazda Ermənistan sabitliyi pozmaq vasitəsi kimi istifadə olunur. Qərb, bildiyiniz kimi, onu Rusiyadan qoparmağa, KTMT və AİI-dən çıxmasına nail olmağa çalışır. Bu imkan qərbyönlü siyasətçi Nikol Paşinyan respublikada hakimiyyətə gəldikdən və İkinci Qarabağ müharibəsində Ermənistanın tam məğlubiyyətindən sonra yaranıb.

Qərbin Rusiyaya qarşı güclü sanksiya müharibəsi ABŞ-ın, o cümlədən regionun ən güclü və sabit dövləti kimi Azərbaycana qarşı istifadə etdiyi böyük siyasi enerji verir. Rusiya-Qərb münaqişəsinin bu enerjisindən Azərbaycan Respublikasının ən mühüm müttəfiqi və Rusiyanın lazımlı, yaxşı tərəfdaşı olan Türkiyəyə qarşı da istifadə olunur. Bildiyiniz kimi, ABŞ və Türkiyənin çətin münasibətləri var. Bu baxımdan Vaşinqton Moskvaya təzyiqlə paralel olaraq Ankaraya da təzyiq alətinin olmasını istəyir. ABŞ Zaqafqaziyaya nəzarət etmək üçün Azərbaycana təzyiq etmək istəyir. Amma Bakıdan keçmək mümkün olmayacaq. Bu gün o, güclü suveren dövlətdir, xüsusən də Qarabağ münaqişəsi həll edildikdən, onun suverenliyi və ərazi bütövlüyü bərpa edildikdən sonra.

Yeri gəlmişkən, obyektiv olaraq, ABŞ-ın özünün "azadlıqlarla" ciddi problemləri var. Bunlara afroamerikalı əhalinin polis tərəfindən dəfələrlə öldürülməsi, jurnalistlərin təqib edilməsi və s. daxildir Deməli, burada, əlbəttə ki, kimisə qınamaq ABŞ-ın işi deyil.

Bundan əlavə, eyni azadlıqlar baxımından Ermənistana diqqət yetirməyə dəyər. Və burada hər şey tamamilə şəffafdır. Axı məhz Ermənistan azərbaycanlı əhalini öz doğma yurdlarından didərgin salaraq onlara qarşı soyqırım törədib və məlum olduğu kimi, azərbaycanlı əhali müasir Ermənistan ərazisindən qovulub. Və orada İrəvan xanlığından əsər-əlamət qalmasın deyə, tarixi saxtalaşdırmaq üçün azərbaycanlıların, o cümlədən İrəvandakı mədəni-tarixi irsi yerlə-yeksan edilib. Niyə?

Ermənistan tərəfi isə 30 ildən artıqdır ki, Azərbaycan ərazilərinin işğalı zamanı təkcə oradakı insanların evlərini deyil, digər dinlərə mənsub olan eyni mədəni-tarixi abidələri, məscid və məbədləri də dağıdıb. Qarabağda məscidlərin çoxu dağıdılıb, islamda bunun natəmiz heyvan olduğunu bilə-bilə orada donuzlar saxlanılıb, yəni xüsusilə təhqir etmək istəyiblər. Bu gün Ermənistanda millətçiliyin səviyyəsi son dərəcə yüksəkdir. Ermənistanda monoetnik cəmiyyət var. Bu, millətçiliyin səviyyəsinin aydın meyarıdır. Bu yaxınlarda İrəvanda sinaqoqlara hücum olub. Yanvarın əvvəlində isə İrəvanın mərkəzində millətçilərin Hitlerin əlaltısı, satqın Qaregin Njdenin ad gününü qeyd etdikləri görüntülər yayılıb. Bütün bunlar nasist salamlarının verilməsi ilə müşayiət olundu. Təəssüf ki, hətta Ermənistandakı kilsə də çox millətçidir. Onun rəhbəri vaxtaşırı kifayət qədər aqressiv anti-Azərbaycan bəyanatları verir. Və həmişə bunu edirdi. Bu cür millətçilik meylləri regionda sülhə töhfə verə bilməz.

***- Yeni il öncəsi ABŞ prezidentliyinə namizəd kiçik Robert Kennedi bildirib ki, Amerikanın indiki hakimiyyət orqanları Qarabağ ermənilərinin probleminə dünyanın diqqət yetirməsini təmin etməlidir. Bir də ki, Qarabağ ermənilərinə görə Azərbaycana qarşı sanksiyalar tətbiq etmək lazımdır. Onlar deyirlər ki, "Ermənistanın və Dağlıq Qarabağın suverenliyini bərpa etmək üçün" onların geri qaytarılmasına çalışacaqlar... ABŞ-da, prinsipcə, bu cür hücumlar Azərbaycan bu gün əsas istiqamətə çevrilib.***

- Bu da mənim səsləndirdiyim səbəblərin nəticəsidir. Kiçik Kennedi ölkədə noyabrda keçiriləcək prezident seçkiləri ərəfəsində böyük ermənipərəst elektorat toplamaq istəyir.

Amerikalıları geosiyasi maraqlar maraqlandırır, məsələn, beynəlxalq hüquq, bəzi prinsiplər və ya münaqişələrin həlli ilə maraqlanmırlar. Amerikanın yanaşması odur ki, keçmişdə ABŞ-ın özünə çoxlu sayda tərəfdar qazanmağa imkan verən prinsiplərdən imtina etsin. İndi bu prinsipləri bir kənara atıb daima pozurlar. Beləliklə, praktikada sərt, kinli siyasət yürüdürlər.

***- Bu gün Azərbaycan ABŞ-ın özünə qarşı "qışqırtılarına" sərt reaksiya verə bilər...***

- Bu həm də onunla bağlıdır ki, Azərbaycan son vaxtlar həm regionda, həm də dünyada öz siyasi statusunu xeyli artırıb, ərazi bütövlüyünü və suverenliyini müstəqil şəkildə bərpa edib. Və bu işdə uğur qazanan nadir ölkədir. Azərbaycan xarici siyasətdə güclənib: İlham Əliyevin fəal diplomatiyası sayəsində ölkənin bütün dünyada çoxlu sayda müttəfiqləri və dostları var. Hərbi-siyasi cəhətdən güclənib, bunu 2023-cü ilin payızında İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri göstərdi. İqtisadi və demoqrafik cəhətdən güclənib: əhalisi bu gün yaxşı templə artır. Daxili siyasi cəhətdən də güclənib: Prezident İlham Əliyev əhalinin əksəriyyətinin böyük, çox güclü dəstəyinə malikdir.

Eyni zamanda, son vaxtlar ABŞ-ın dünyada rolu getdikcə azalır. Dünya yenidən qurulur. Məqsədi kiməsə tabe olmaq deyil, müstəqil olmaq olan dövlətlər erası başlayır.

ABŞ-ın qlobal iqtisadiyyatda rolu getdikcə azalır. Məsələn, İkinci Dünya Müharibəsindən sonra ABŞ iqtisadiyyatı dünya iqtisadiyyatının 50 faizindən çoxunu təşkil edirdi. Biz ABŞ-ın elan etdiyi azadlıq və demokratiya dəyərləri ilə onun faktiki siyasi təcrübəsi arasında uçurum görürük. Bu gün Amerika siyasəti əsasən qeyri-funksionaldır və ABŞ-ın hərəkətləri gözlənilməz ola bilər.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
10 yanvar
2024-cü il

# "Yeni sistem taksi sahəsində mühüm irəliləyiş yaradacaq"




## EKSPERTDƏN AÇIQLAMA

"Azərbaycanda avtomobil nəqliyyatı ilə sərnişindaşıma sahəsində ciddi problemlər var. 2023-cü ilin iyun ayında Milli Məclisdə yeni bir qanun qəbul olundu ki, bu sahədə nizam-intizam yaransın. "Avtomobil nəqliyyatı haqqında" qanuna, Vergi məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə dəyişiklik olundu. Bu dəyişikliklərin bir hissəsi 2023-cü ilin oktyabrından, digər bir hissəsi isə bu ilin yanvarın 1-dən qüvvəyə minib". Bu sözləri SİA-ya açıqlamasında yol hərəkəti üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov deyib. Onun sözlərinə görə, hədəf isə icazə sistemini təkmilləşdirməkdir: ""Lisenziyalar və icazələr haqqında" qanunda göstərilir ki, avtomobil nəqliyyatı ilə həm sərnişin, həm də yük daşınması üçün icazə alınmalıdır. Bu icazədə yenilik ondan ibarətdir ki, avtomobil nəqliyyatı sərnişin daşınması ilə məşğul olmaq istəyən hüquqi şəxslər, şirkətlər və sahibkarlar buraxılış vərəqəsi almalıdır. Bundan sonra taksi kimi fəaliyyət göstərmək istəyən şəxslər buraxılış kartı almalıdır. Yəni, burada iki elektron sənəddən söhbət gedir. Buraxılış vərəqəsi daşımalarla, buraxılış kartı isə daşımalarda taksi fəaliyyəti ilə məşğul olmaq üçündür. Bu sistem hələki işə başlamayıb. Ona görə də sistem tam şəkildə qurulanadək heç kimə cərimə yazılmayacaq".

"Hesab edirəm ki, bu sistem şəffaf formada hazır olsa, sözügedən sahədə mühüm bir irəliləyişə nail ola bilərik. Çünki taksi fəaliyyəti ilə bağlı xeyli narazılıqlar var. İstər taksi sürücülərinin davranışı, istər yol hərəkəti qaydaları, istərsə də avtomobillərin vəziyyəti ilə bağlı şikayətlər mövcuddur. Bununla yanaşı, taksi sürücülərinin də istismar olunmaqlarına dair şikayətləri var. Bu sistem bütün bunları nizama salmağa yönəlib. Şəhərdə xaos yaradan, lazımsız hərəkətlər edən bəzi taksi sürücüləri bu sistem sayəsində öz sənədlərini, davranışlarını və s. qaydalara uyğun vəziyyətə gətirərlər",- deyə o əlavə edib.

***Ləman Sərraf***

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Maykl Ceksonun rekordunu qırdı, 261 milyon dollardan çox qazandı



Amerikalı müğənni Teylor Sviftin "Eras Tour" adlı musiqili ekran işi rəsmi olaraq tarixdə ən çox gəlir gətirən konsert filminə çevrilib. Xarici medianın yazdığına görə, sənədli film Maykl Ceksonun 2009-cu ildən bəri sahib olduğu rekordu qırıb. Yanvarın 7-nə olan məlumata görə, film dünya üzrə 261,6 milyon dollardan çox gəlir əldə edib.

Qeyd edək ki, "Michael Jackson: That's All" filmi 261,2 milyon dollar qazanıb.




# Ançelotti Arda Gülerə "yaşıl işıq yandırıb"

Madrid "Real"ının türkiyəli futbolçusu Arda Güler İspaniya Superkubokunun yarımfinalında "Atletiko" ilə oyun üçün iştirak ərizəsində yer alıb. İtaliyalı baş məşqçi Karlo Ançelottinin şans verəcəyi təqdirdə o, Superkubok qarşılaşmasında meydana çıxa biləcək.

Xatırladaq ki, Madrid derbisi yanvarın 10-u, Səudiyyə Ərəbistanın "Al-Avval" stadionunda keçiriləcək. Görüş Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# Bayram günlərində yol qəzalarında 8 nəfər ölüb

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar qeyri-iş günlərində ölkə ərazisində 20 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 8 nəfər ölüb, 24 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Bu barədə SİA-ya Baş Dövlət Yol Polisi İdarəsindən məlumat verilib.

Bildirilib ki, dəfələrlə sosial şəbəkələrdə və mətbuatda sürücülərə, eləcə də piyadalara edilən xəbərdarlıqlara baxmayaraq həmin günlərdə kobud qayda pozuntularına rast gəlinib: "Bu qayda pozuntuları da arzuolunmaz hadisələrə gətirib çıxarır. Sürücülər ən çox sürət həddinin aşılması, manevr etmə qaydasının pozulması, həmçinin nasaz avtomobillərin idarə edilməsi kimi qayda pozuntularına yol veriblər. Sürücülərdən xahiş və tələbimiz yol hərəkəti qaydalarına ciddi riayət etmələridir. Bizim əsas məqsədimiz onların mənzil başına rahat və təhlükəsiz çatmalarıdır".



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**